Kitabın qapağındakı rəsm:
Baltalanmış ağac
Rəssam:
İbrahim Əhrari

## KİTABIN QAPAĞINDAKI RƏSMLƏ BAĞLI BİR NEÇƏ SÖZ:

Dəyərli rəssam İbrahim Əhrariyə bu kitaba bir rəsm çəkməsi üçün arzumu bildirdim. Az bir zamandan sonra rəsm əlimdə idi: Amansızcasına baltalanmış bir ağac! Ölməmiş, amma ölümə ən yaxın bir yerdə!
,,Bəlkə özünüz bu ağac üzərinə bir neçə söz deyəsiniz!" - Söylədim.
,,Baltalanmışdır ağac, kəfənlənmiş ölülər kimi ağappaq; yalnız bir budağı qalmış, o da cansız ölülər rəngində! Amma ağac ölməmişdir, var gücüylə yarpaqlanmış və insan beyninə bənzər beynində həyatın ən gözəl rəngləri yaşamaqdadır, əlbəttə orda ölüm də var." - Rəssam sözünü bitirmişdi.
Mənsə düşünürdüm: ,,Ölümün donduran nəfəsini ən yaxınlarda duyan bir varlığın bunca işıqlar və rənglər içində yarpaqlanması, yaşama sevgisinin ən ulu və ən coşğun mahnısı deyilmi?!"

# SUSMAZ MAHNI

ŞERLƏR

1995-2002

# ƏZİZ SƏLAMİ

İÇİNDƏKİLƏR:


| | |
|---|---|
| Habilin öcü | 10 |
| Sən gəl | 11 |
| İtmiş gecə | 12 |
| Onları da | 13 |
| Quşlarla | 14 |
| Mavi olmaq | 15 |
| Sarı qar | 16 |
| Batan günəş | 17 |
| Gəl qış | 18 |
| Bir mahnı | 19 |
| Qoparma | 20 |
| Hərdən gəl | 21 |
| Gözlərim önündə | 23 |
| Vasvası | 24 |
| Keçməyin | 25 |
| Vidalaşma | 26 |
| Səbir daşı | 27 |
| Ingrid | 29 |
| Qorxardım | 30 |
| Mavi ümid | 31 |
| Çiynimizdə | 32 |
| Deyə bilmirəm | 33 |
| Bir yana | 34 |
| Ağac | 35 |
| Qarğanın da | 36 |
| Mən səni sevirəm | 37 |

| | |
|---|---|
| Papağım | 38 |
| Tumurcuqlu budaq | 39 |
| Daldınızmı? | 40 |
| Gündüz | 41 |
| Arzular | 42 |
| Qoxusu köynəyinin | 43 |
| İnsanda | 44 |
| Qış bitirkən | 45 |
| Gülüşün | 46 |
| Mənmi?! | 47 |
| Qanad-qanada | 49 |
| Çiçəklər | 52 |
| Ayna | 54 |
| Çaylarla | 55 |
| Səni anırkən | 56 |
| Bir ağac | 57 |
| Gözəl gün | 58 |
| Qısqanma | 59 |
| Zəngin | 60 |
| Bayquş səsi | 61 |
| Danış mənimlə | 62 |
| Uşaq | 63 |
| Bir insan | 64 |
| Üzüm | 65 |
| Qovaqlar ardından | 66 |
| Buludları yara-yara | 67 |
| Fəsillərin üzərindən | 68 |
| Son damla | 69 |
| Zümrüd quşu | 70 |

| | |
|---|---|
| Köpək olmaq | 72 |
| Mavi ana | 73 |
| İlan | 74 |
| Qızılüzən mahnısı | 76 |
| İç-içə | 77 |
| Ulduzlaşanım | 78 |
| Gəlməyəcək gələcəkdir | 79 |
| Görüş | 81 |
| Aslan, quş və insan | 82 |
| Sabahlara qədər | 84 |
| Doğru dost | 86 |
| O qədər yoxam ki mən | 87 |
| Fənərlilər əfsanəsi | 88 |
| Sərçə nağılı | 90 |
| Ölçü | 92 |
| Uzaqlardan gələn ay | 93 |
| Çəlik izlər | 95 |
| Ulu söz | 96 |
| Uzaq qala | 97 |
| Ulduzlarla | 99 |
| Sudan sonra | 100 |
| Bir ağcaqayınımız vardı | 101 |
| Dostumuz qurbağa | 103 |
| Qar yağırkən | 105 |
| Karvan | 106 |
| Uzaqsız yaxınlar | 107 |
| Qonaq | 108 |
| Duymadan | 109 |

| | |
|---|---|
| Uçurum | 110 |
| Köç | 111 |
| Dörd adsız şer | 112 |
| Ağacdələn | 114 |
| Sonsuz | 115 |
| Keç məndən | 116 |
| Qucaq-qucaq | 117 |
| Ağac, tosbağa və insan | 118 |
| Dovşanım | 120 |
| Dəli Oğlan | 122 |
| Qız körpüsü | 124 |
| Bitirilmiş yol | 126 |
| Bir evim | 127 |
| Gəldim | 128 |
| Bir gün | 129 |
| Səni görməyə gəldim | 130 |
| Yatmış uşaq | 131 |
| Bir mahnı gəldi | 132 |
| Ürəyim onda qaldı | 133 |
| Gözlərinin səsi | 134 |
| Ardımızdan | 136 |
| Sənsizlik çiçəyi | 137 |
| Mən səni gözləyirdim | 138 |
| Torpaq döydü qapım zı | 139 |
| Hələ insan yoxdu! | 140 |
| Sordum səni | 142 |
| Kimsə yox | 143 |
| Dağ, dəniz və biz | 144 |

İlkində 145
Dağlar 146
O susan 148
Daş kimi 149
Adını 150
Ölümün rəngi 151
Bayraqlar yox olurkən 152
Uçan qələm 153

DÜNYA BİR PƏNCƏRƏDİR 155

Bayatı 156
Su gəlib axar gedər 158
Qapıdan biri gəlir 160
Dağların göy çəməni 162
Bağa girmərəm sənsiz 164
Dağlara çən düşəndə 165
Suya gedən ikidi 166
Açıq qoy pəncərəni 167
Bu dağlar ulu dağlar 168
Su üzündə nanəyəm 169
Qalan işə qar yağar 170

ALƏMİN YATAN VAXTI 171

Azərbaycan əfsanələri:

Donan bulaq 172
Damcılı bulaq 174

Gəlin daşı 176
Beşikli dağ 178
Tütək səsi 181
Lalə 184
Zümrüd quşu və ilan 187
Dağ və bulud 191
Karvanqıran ulduzu 193
Dəniz və qağayı 195
Qanlı gölün maralları 197
Torpaqla göy 199
Acı bulaq suyu 200
Aləmin yatan vaxtı 202
Pərvanə və od 204
Qaraca Çoban 205
Bülbül və qaratikan kolu 208
Ayla günəş 210
Sən’ an dağı 212
Qu quşu əfsanəsi 215

XORUZ QARDAŞ 217

Malayziyadan bir əfsanə

Xoruz qardaş 218

## HABILIN ÖCÜ

Deyirlər Qabil
Öldürəndən bəri Habili
İnsanlar arasında başladı kin
Töküldü qan.

Bəlkə elə varlıq
Bizim o Habili
Yenidən yaratdı ki
Kaman çalsın
Və unutdursun insanlara
Qan tökməyi, kini
Qabilin etdiyini.

## SƏN GƏL

Mən sənə qovuşa bilmirəm
Doğma dağım!
Sən gəl, nə olar
Ayaqlaya-ayaqlaya
Aramızda ucalan divarları.

## İTMİŞ GECƏ

Elə bir gecəm olsaydı bir
Yatmaz şəhər
Gözlərini yumsaydı bir!

Dinləsəydim bir
                    gecəni!
Yağan yağışı
Əsən küləyi
Axan suyu
Xışıldayan bir ağacı
Uzaqlardan bir bayquşu
Hürən bir iti
Qaranlıqda çığıran quşu.

Elə bir gecəm olsaydı bir
Yatmaz şəhər
Gözlərini yumsaydı bir!

# ONLARI DA

Ah nə qədər quşlar öldü
Bu amansız qışda!

Bahara qovuşacaq
Yaşayan quşlarım,
Gözəl quşlarım!
Onların da ötmədiyi mahnıları
Mahnılarınıza qatın!
Mavi, işıq göylərdə
Onları da uçun!
Çiçəkli ağaclarda
Onları da yatın!

## QUŞLARLA

Bütün quşlarla keçdim qışdan
Acdım,
Dən tapmadım
Öldüm.

Soyuqdu,
İsti yuvam yoxdu
Dondum.

İndi bu buğlanan budaqda ötürəm,
Əriyən ölüm altından
Baş qaldırır yaşıl bahar,
Görürəm.

# MAVİ OLMAQ

Dəniz olmaq istərəm dəniz.

İnsan olduğumda çox kiçiyəm
                    yoxam,
Dəniz olmaq istərəm dəniz,
Qucaqlayım deyə mavi göyü
Açmaq istərəm qollarımı
                    geniş-geniş,
Mavi olmaq istərəm onun qədər.

Dəniz olmaq istərəm dəniz.

## SARI QAR

Hər yana sarı qar yağıb.

Ağacların altında
Yolların kənarında
Qucaq-qucaq sarı qar.

Hər yana sarı qar yağıb.

Bu qar əriməyəcəkdir
Su olub axmayacaqdır,
Qızaracaqdır
Bozaracaqdır
Küləklərlə uçacaqdır.

Sonra yenə baharda
Yaşıl-yaşıl
Ağaclara yağacaqdır.

Hər yana sarı qar yağıb.

# BATAN GÜNƏŞ

Batan günəş
O qədər gözəl idi ki
Onunla batdı mənim də ürəyim.

İndi doğan günəşlə doğur
Qaranlıqların ağardığı yerdə
Mənim ürəyim də.

# GƏL QIŞ

Bu salxımsöyüdün baş budağında
Qarıldayır qarğa:
Qaaar... qaaar... qaaar...

Qarğa qarı çağırır
Qarğa qışı çağırır:
Qaaar... qaaar... qaaar...

Mən də səni çağırıram qış!
Gəl!
Şirin nağıllı
Uzun gecələrin olsun,
Qarın bol olsun.
Ağ qoynundan
Qızıl günəşli
Yaşıl bahara
Bir yol olsun.

# BİR MAHNI

Aman ölüm
                    dayan!
Bir mahnı dinləyirəm:
„Endim bulaq başına
Yazı yazdım daşına...“

Bulaq olub ürəyim
Qayır-qayır qaynayır
Yazı yazılır daşına
Nələr gəlmiş başına.

Aman ölüm
                    gəlmə!
Bir mahnı dinləyirəm.

## QOPARMA

Qopardılar məni səndən
Budaqdan meyvə deyil
Boğazdan
Dil kimi.

Sən orda qaldın
Qan içində
                    dilsiz,
Mən burda
Havadan asılı.

## HƏRDƏN GƏL

Hərdən gəl
Bağlayaq pəncərəmi
Küçəyə
Maşına
Adama,
Çəkilək otağımdakı
                uzaq adama.

Uçsun başımız üstündə
Qağayı-mahnılar,
Yalasın çılpaq ayaqlarımızı
Dalğa-dalğa səssizlik.

Bir qaya başında bir cüt
Ağac kimi
           baş-başa qalaq,
Bizə doğru
             nə bir yol
                        nə bir ayaq.

Hərdən gəl
Bağlayaq pəncərəmi
Küçəyə
Maşına
Adama,
Çəkilək otağımdakı
uzaq adama.

# GÖZLƏRİM ÖNÜNDƏ

Beşcə söz danışdıq ancaq
Gözlərim önündə qaldı səsi
Bir viranə kimi.

## VASVASI

Tanrı buyurdu vasvası qadına:
Nə arzun varsa söylə
Doğruldacağam.

Qadın dedi:
Ulduzlarını ver mənə
Yuyacağam.

## KEÇMƏYİN

Keçməyin bu yoldan
Uçmasın uçaq da üzərindən,
Ağaclar elə dursunlar
Budaqlarında son yarpaqları,
Yol da belə qalsın
Üzərində sehirli
Rənglərlə toxunmuş
Bu uzun xalı.

Keçməyin bu yoldan
Uçmasın uçaq da üzərindən.

## VİDALAŞMA

Bir çox yarpaq tökülürdü
Hər gün balkonumuza
Ağcaqayından:
Sarı
Qırmızı
Boz.

Tək bir yarpaq düşdü bir gün:
Solğun
Yorğun
Soyuq.

Götürdüm yerdən
Əlimin istisiylə isindirdim onu.

Sonbaharın əliydi
Mənimlə
Vidalaşmağa gəlmişdi.

## SƏBİR DAŞI

Mən onu
Səbir daşı bildim özümə
Nağıllarda olduğu kimi.
Qapayaraq qapı-bacamı
Qoyardım önümə səbir daşımı,
Açardım ona
Sirrimi, acımı.
O susmazdı nağıllarda
olduğu kimi,
Danışardı da, dinərdi də,
„Sıxılma, hər nə yaxşı olacaq!"
Deyərdi də.
Mənim belə bir səbir daşım vardı,
Sirrimi, sözümü
Özünə yığardı.

Bir gün
Ona dediklərimi
Başqasınadan dinlədim
Və bildim ki
Söyləyirmiş səbir daşım
Sözlərimi özgəsinə.

Nağıllardakı səbir daşı
Nə danışar, nə dinər,
Yalnız dinlər və dinlər...
Və bir gün tükənər səbri,
Çatlayar.
Amma mənim səbir daşım
Belə olmadı,
O nə çatlamadı
Nə də mənim sirrimi
Gizləmədi, saxlamadı.
Mən səbir daşımı
Özüm çatlatmaq istədim,
Amma etmədim,
İnsan daş deyil axı,
İnsandır.

Ancaq and içdim ki
Daşdan səbir daşım yoxsa,
İnsandan səbir daşım olmasın.
Sirrim
Qapı-qapı gəzməsin,
Sözüm ağız-ağız dolaşmasın.

INGRID
(İnqrid)

Mən nə idim ki
Əl boyda torpaqdan başqa,
Onlar məni tulladılar
Ortasına dənizin
Boğulsun, yox olsun deyə.

Dan yerindən doğdun sən
Qanadlarında günəşin işıqları,
Sərdin üstümə qanadlarını
Qoymadın məni boğulmağa
Yox olmağa.

İndi dörd yanımda dalğalar coşur,
Qanadların altında
Döyünür ürəyim.

## QORXARDIM

Bilsəydim ki öləndən sonra
Yox olacağam
Qorxardım.

Torpaq olacağam torpaq
Ağacların kökünü
Qucaqlayan torpaq.

## MAVİ ÜMİD

İmdad diləyən əllər kimi
Açıla qaldı çılpaq budaqlar.

Nə yaxşı ki
Ovuc-ovuc
Mavi ümid var.

# ÇİYNİMİZDƏ

Hərlənir dünyanın çarxı
Ağır-ağır...
Biz də ondan asılı.

Çiynimizdə ağırlığı.

# DEYƏ BİLMİRƏM

Sənə minnətdarlığımı
Deyə bilmirəm,
Deyə bilərmi heç
Torpaq yağışa?

# BİR YANA

Hər yana qoydumsa
Günəşə döndü çiçəyim.

Hər yana qoydumsa
Sevgiyə döndü ürəyim.

# AĞAC

Qaranlıqlara endikcə
İşığa ucaldı ağac.

## QARĞANIN DA

Nədən yalnız
bülbül ötsün baharda,
Yaşıllanan çöllərə
Sözü var bu qarğanın da.

# MƏN SƏNİ SEVİRƏM

Mən səni sevirəm.
Nə səni görmüşəm
Nə adını bilirəm
Nə hansı dildə danışdığından
Nə hansı torpağın, ağacların, suların
Balası olduğundan var xəbərim.

Mən səni sevirəm.
Sən də məni sevsəydin
Silərdi gözyaşlarımızı
Görünmədən əllərimiz.

## PAPAĞIM

Oğurladılar papağımı
oğurladılar.
İstisiylə başımı oxşayardı
Naxışlarıyla gözlərimi,
Yumşaqlığıyla barmaqlarımı.
Oğurladılar gözəl papağımı
oğurladılar.

Ağlayardım utanmasaydım,
ağlayardım,
Baxardınız qəmli-qəmli
sevinən gözyaşıma!

Sizə minnətdaram
insan qardaşlarım
Minnətdaram!
Qıydınızsa papağıma
Qıymadınız başıma!

## TUMURCUQLU BUDAQ

Birdən gördüm tumurcuqlu budağı
Ah bir ildi keçən
Yoxsa bir gündü?!

## DALDINIZMI?

Siz daldınızmı heç
Bir damlaya?

Mən daldım.

Bir dalımlıq
Mavi dəniz qədər
Ləzzət aldım.

# GÜNDÜZ

Öldürürdülər aydınlıqları
Qaçıb qaranlıqlarda gizləndi
Gecə oldu gündüz.

## ARZULAR

Düşündüm ki:
Arzularla keçir ömür.
Doğrularmı bir gün onlar?!
Ah çətin!

Birdən ağardı qaranlıq içim
Dinlədim uçmasını
Bir cüt ağ qanadın.

## QOXUSU KÖYNƏYİNİN

İllər keçdi uzun-uzun
İllər keçdi,
Qaldı burnumda yenə
Qoxusu köynəyinin.

İllər keçdi burnumdan
Karvan-karvan
Qoxu yüklü.

İllərlə getdi
Küləklərlə sovruldu
Qoxular da.

Burnumdamı
Haramdamı qaldı
Qoxusu köynəyinin?

Qaldı ki qaldı!

## İNSANDA

Daşda ağır keçir zaman
Suda amma
Çox yumşaq.

Daşdan ağır
Sudan yumşaq
Keçir zaman
İnsanda.

## QIŞ BİTİRKƏN

Rənglərlə
Oyandı hər yan.

Rəngsiz
Oyanış yoxdur inan!

## GÜLÜŞÜN

Yenə sizdəydim
Səninlə oturmuşdum
Yenə gülürdü üzün
Gülüşünlə dolmuşdum.

İsti çörəkdəndi gülüşün
Sərin sudan,
Bayram yumurtalarındandı gülüşün,
Bir qırmızı şirin qarpızla
Xoşbəxt olduğumuz zamanlardan.

Səninlə oturmuşdum
Nə dinir nə danışırdıq,
Gülüşünlə dolmuşdum,
Bütün buludlarımla uyumuşdum,
Bütün günəşlərimlə oyanmışdım.

Durdum yuxudan
Üzümdə işıq gülüşün vardı
Ürəyimdə gözyaşlarım.

# MƏNMİ?!

Mənmi gördüm onları
Mənmi yaşadım?!

Hər gün bir quş gələrdi axşamları
Qonardı eyvanımızda bir yana
Göyqurşağındandı qanadları,
Ötərdi səssizlikdə,
Mənsə onun sözsüz əfsanəsini
Anlamağa çalışardım,
Anlamazdım, amma
Nələr düşünərdim
Nələr duyardım!
Sehirlənərdim
Bayılardım.

Hələ qovaqlarımız, o qovaqlar!
Uzaq dağlardan gətirərdi baharı
Bağçamıza,
Hər sonbaharda tökülər hələ
Yarpaqları içimə,
Hər baharda yaşıllanar məndə
Özləri olmasa da.

Hələ o üfüqlər
Təpələr ardından
Mavi-mavi
        qanadlanan o üfüqlər!
Gülümsəyən bir beşik qədər yaxın
Varılmaz arzular qədər uzaq.

Mənmi gördüm onları
Mənmi yaşadım?!
Yoxsa haçansa bir sehirli səsin
Ötdüyü bir mahnıdanmı
Dinlədim onları?!

## QANAD-QANADA

Səninlə qanad-qanada.

Sahillərin
Görünməzliyindən başlaması
Mənimlə sənin.

Səninlə qanad-qanada.

Köpürən dalğalarla,
Uzaq sular ardından yanan
Uzaq sular ardında sönən
Günəşlərlə.

Kimsəsiz suların xoşbəxt sakinləri
Balıqlarla
Delfinlərlə.

Görünməzliklərdən başlayan
Görünməzliklərdə görünməz olan
Sularla
Sularla
Sularla...

Səninlə qanad-qanada.

Birdənbirə
Dalğaların qoynunda
Bir görünüş
Bir nöqtə.

Sonra sonsuz maviliklərdə
Bir kölgə.

Və yaxınlaşan kölgədən
Baş qaldıran qayalar,
Qayalarla qucaqlaşıb ayrılan
Ayrılıb qucaqlaşan
Ayna sular.

Qonmaq səninlə qonmaq
Səninlə qanad-qanada.

Sonra insanların
Yelkənlərin
Üfüqlərindən çox uzaqlarda
Keçmək bir ömürdən bir ayda,
Coşmaq coşan sularla
Hayqırmaq hayqıran qayalarla,
Anlara doldurmaq illəri
Od kimi keçmək anlardan
Səninlə qanad-qanda.

Sonra bizim olmayan bir anda
Sönmək artıq, soyumaq
Sərilmək mavi sularla
Qucaqlaşan qayalar üstünə
Səninlə qanad-qanada.

ÇİÇƏKLƏR

Gözu yoxdur ki çiçəklərin,
Amma gör nə baxırlar
məˊsum-məˊsum!

Dodağı yoxdur ki çiçəklərin,
Amm gör nə gülürlər
səssiz-səssiz!

Qəlbi yoxdur ki çiçəklərin,
Amma gör nə sevinirlər
dərin-dərin!

Qanadı yoxdur ki çiçəklərin,
Amm gör nə uçurlar havada
qanadıyla qoxularının!

Əli yoxdur ki çiçəklərin,
Amma gör nə qalırlar
əlimizdə yumşaq!

Ayağı yoxdur ki çiçəklərin
Amma gör nə keçirlər ürəyimizdən
duyğularımızı oxşayaraq!

Xəbəri yoxdur ki çiçəklərin
Nə olduğundan sevginin,
Amm gör nə sevgi daşıyırlar
evlərdən-evlərə
əllərdən-əllərə!

Biz öləndə də
Qucaqlayırlar soyuq gövdəmizi
Və ovundururlar
Yoxluğumuzla bizi.

## AYNA

Ayna göstərdi mənə üzümü.

Sağ ol ayna, nə gözələm!

Amma gözlə ha ayna!
Vurub səni qıraram
Göstərsən mənə özümü!

## ÇAYLARLA

Axın məni də çaylar!
Axınca.
Unudun məni çaylar!
Dənizə çatınca.

## SƏNİ ANIRKƏN

Hava ağrıdı hava
O qədər ki andım səni mən
Doladım boynuna qollarımı
Qucaqladım havanı.

Hava ağrıdı hava.

## BİR AĞAC

Fırtınadanmı
Nədənmi
Bir ağac yıxılmışdı,
Düşmüşdü asfalta çiçəkli başı
Qucaqlamışdı yaşıl qollarıyla
                    soyuq yolu
Bulaşmışdı kirli suya
                    yarpaq-əlləri.

Fırtınadanmı
Nədənmi
Bir ağac yıxılmışdı,
Havada
Özü boyda
Bir ağrı qalmışdı.

# GÖZƏL GÜN

Nə gözəldir bu gün ah
Hamı yorğundur!

Başlarda düşüncə yarı
Gözlərdə baxış yarı
Ürəklərdə duyğu yarı
Nə varsa insanlarda
Yarı.

Əllər elə yorğun ki
Tuta bilməz xəncər,
Sıxa bilməz bir boğazı,
Bağlaya bilməz bir ağızı.

Nə gözəldir bu gün ah
Hamı yorğundur!

## QISQANMA

Qısqanıram səni mən
Ey ağacda özünü
Bunca gözəl ötən quş!

## ZƏNGİN

Ah mən nə zənginəm!
Bunca mavi göyüm
Bunca yaşıl meşəm.

## BAYQUŞ SƏSİ

Nə gözəldir qaranlıq bir gecədə
Dinləmək uzaqlardan
Bir bayquş səsini.

Yuxular səksəkəsiz,
Uyumuş torpaq
Sonsuz göylər qədər rahat,
Qapamış gözqapaqlarını
Mışıl-mışıl uyuyan pəncərələr.

Nə gözəldir aylı bir gecədə
Dinləmək yaxınlardan
Bir bayquş səsini.

## DANIŞ MƏNİMLƏ

Axıb gedir su
Daş yerində.

Danış mənimlə su!
Söylə sirrini bir-bir,
Səni dinləməkçin
Daşlar qədər
susacağam!

Danış mənimlə daş!
Aç bağlı ağzını bir,
Səni anlamaqçın
Sular qədər
yumşalacağam!

## UŞAQ

Kölgə nə dedi ki uşağa
Sərin-sərin ovundu uşaq?

Günəş nə dedi ki uşağa
Altun-altun güldü uşaq?

Göy nə dedi ki uşağa
Mavi-mavi uyudu uşaq?

Ot nə dedi ki uşağa
Yaşıl-yaşıl böyüdü uşaq?

Quş nə dedi ki uşağa
Söz bilmədən qığıldadı
Oxudu uşaq?

Çay nə dedi ki uşağa
Əl-qol çaldı
Aradı uşaq?

Sən nə dedin ki uşağa
Qaşlarını çatdı uşaq
Ağladı uşaq?

## BİR İNSAN

Bir insan öldürdü bu gün özünü.

İndi günəş batır uzaqlarda...
Buludlar altun yelkən,
Qaranlıq-qaranlıq
Keçəcəklər gecədən.

Yuyulmuş qu qanadlarından ağ
Qanadlancaqlar yenə də
Sabah üfüqlərdən.

Bir insan öldürdü bu gün özünü!

ÜZÜM

Nə qədər sevirəm səni ey
günəşli üzüm!
Qoy altun sularında bir
doyunca üzüm!
Qoy işıqlansın səninlə qaranlıq
gecələrdə üzüm!
Qoy sehirli barmaqlarınla bu
həsrət gülünü üzüm!
Heç olarmı bu dünyada
əlimi səndən üzüm!
Ah nə qədər sevirəm səni ey
günəşli üzüm!

## QOVAQLAR ARDINDAN

Göründü birdən üfüq
Qovaqlar ardından.

Ah nə mavi bir baxış!
Nə mavi bir gülüş!
Nə mavi bir dünya!

Sızlayırdı sızım-sızım
Kəsilmiş bir cüt qanad yeri
Uclarında çiyinlərimin.

BULUDLARI YARA-YARA

Əldən-ayaqdan uzaq
Bir ağacdır dodaqların,

Ah o sulu meyvələri
O qırmızı budaqların!

Yetər ki bir pıçıldasın
,,Gəl!” - Söyləsin yarpaqların

Buludları yara-yara
Gələr qartal-dodaqlarım.

## FƏSİLLƏRİN ÜZƏRİNDƏN

Ən dərin
Və ən səssiz bir gecədə
Gözlərimdə ulduzlar
Əlimdə dolub boşalan qədəh
İçəydim
        içəydim
                içəydim...

Gündüzlərlə dolu
Fəsillərin üzərindən
Keçəydi gecə
Keçəydi
        keçəydi
                keçəydi...

Və gözlərimdə ulduzlar
Əlimdə dolub boşalan qədəh
İçəydim
        içəydim
                içəydim...

## SON DAMLA

Bütün gündüz boyu axdı zaman,
Sən bilmədin,
İndi gör uzaqlarda
O son
          gızıl
                    damlasını!

ZÜMRÜD QUŞU

Şaqqa-şaqqa ətimiz vardı
Tuluq-tuluq suyumuz
Zümrüd quşu!
,,Qa”- dedikcə ət verdik
,,Qu” - dedikcə su verdik
Sonra bitdi hamısı!

Bir az ətindən verdi
Məlik Məmməd,
Biz amma verdik canımızı da,
Tuluqlara doldurduq qanımızı
Su bitdi verdik qanımızı da.

Nə qaranlıqlar tükəndi
Nə bir yandan işıq gəldi
Yaxınlar da
Uzaqlar qədərdi.

Göylər varmış üstümüzdə
Yerlər varmış altımızda!
Bu gerçəkmi, əfsanəmi?
Bizmi qaranlıqlar içindəyik
Qaranlıqlar bizdəmi?

Artıq tükəndi hər nəyimiz
Daha sənə nə verək biz
Zümrüd quşu!
Barı sən bir dil aç danış
Barı sən bir söylə bizə
Varmı qaranlıqların tükəndiyi bir
yer?
Gələrmi bir gün bizimlə
Aydınlıqlar üz-üzə?

## KÖPƏK OLMAQ

Köpək olmaq istərdim,
Qoxulamaq istərdim
Bu dünyanı dərin-dərin.

## MAVİ ANA

Qısadır qollarım qısa
Necə dolayım varılmaz boynuna?
Sonsuzluğun qədər
Boşdur ovuclarım
Necə doldurum səninlə necə
Mavi ana!

Sənə qovuşmaqçın
Sənə qarışmaqçın
Öləcəyəm,
Dənizlərinlə
          dağlarınla
                    ovalarınla
Qucağında dönəcəyəm.

## İLAN

Gün aşmışdı ortasını göyün
Mavi saplar gəlirdi uzaqlardan,
Toxuyurdu qayalar
İpək xalı olurdu Qızılüzən
Axırdı yavaşcadan.

Sevgili barmaqlarla naxışlanmış
Qiymətli qayışlar qədər gözəl
Bir ilan sürünürdü qayalarda.

Bir bağırtı qopdu birdən
Ta qaranlıqlarından içimin:
,,Əəz... əəz... əz başını!
İlan gördün əz başını!"
Qorxaq bir pıçıltı dinlədim
Ürəyimdən:
,,Yoox... yoox... yoox nədən?"

Ta qaranlıqlarından içimin
Qopan o bağırtıdan
Susdu o pıçıltı
Ucalmadan.

Bilmədim nə zaman
Daşlarla doldu boşaldı əlim,
Çilənə-çilənə qayalara qan
Bir daş altında gizləndi heyvan.

İllər keçdi o çağlardan
Dərin qaranlıqlarına içimin
Çilənə-çilənə naxışlarından qan
Sürünər hələ
O ilan.

# QIZILÜZƏN MAHNISI

dostum Qadir üçün

Yorulanda ayaqlarım
Axardın sən,
Gücdən düşəndə qollarım
Qayaları qaldırardın sən,
Tikiləndə dodaqlarım
Hayqırardın
Dağları sarsıdardın sən.

Dalğalı yolum
Axar vətənim
Ölkələrə uzanan
Mavi əlim
Qızılüzənim!

# İÇ-İÇƏ

Bir tosbağa
Yeriyir zamanı
Gəlib çatır su başına,
İncə-incə qurtumlarla
İçincə suları
İçir zamanı.

Bir qarışqa
Daşıyır zamanı
Ağzındakı bir buğdada.

Bir quş balası
Böyüyür zamanı
İçindəki yumurtada.

Ulu bir şimşək
Çaxır zamanı
Sonsuzlarda.

Zaman ancaq iç-içə,
Nə öndə
Nə arxada.

## ULDUZLAŞANIM

Bu mənim insanımdır
Mən bunun insanıyam,
Əlimin dərisindən
Yaxındır əlimə əli,
Bunun köksündə yağdı ürəyim
Mənim köksümdə çiçəkləndi ürəyi,
Bunun gözləriylə görə bildim
                                        çox vaxt,
Öz gözlərimin üfüqlərindən uzaq
Bir çox şeyi.

Balina oldum
Çılpaqlığı olunca dəniz,
Ən gizli yerlərində belə
Məndən qaldı bir iz.

Bu mənim insanımdır
Mən bunun insanıyam,
Oturmuş mənimlə üz-üzə
Baxıram ona baxıram,
Mən baxdıqca o məndən uzaqlaşır
Uzaqlaşır... uzaqlaşır...
Ün yetməz olur
Əl çatmaz olur
Uzaqlaşır... uzaqlaşır...
Çəkilir bilinməzliyinə göylərin
Bir ulduz olur.

# GƏLMƏYƏCƏK GƏLƏCƏKDİR

Ağlayır uşaq, dörd yaşı var,
- Ata... ata... - , deyir uşaq,
Basır onu bağrına ana:
- Ağlama bala, atan artıq
gəlməyəcək!
Ağlayır uşaq
Ağlayır ana...

Gəlməyəcək... gəlməyəcək...
Nə deməkdir gəlməyəcək?
Gəlməyəcək gələcəkdir,
Gəlməyəcək eşitdikcə gəlir ata...
Bax az qaldı ona çata!
Nədən qapı açılmayır
Gələ-gələ gəlmir ata?
Bax, açıldı yenə qapı
Hanı ata?
Hanı ata?

Heç olarmı quş uçmasın?
Heç olarmı oyuncaqları olmasın?
Heç olarmı gündüzləri oynamasın?
Gecələri uyumasın?
Heç olarmı susayanda su içməsin?
Acıxanda o yeməsin?
Heç olarmı... heç olarmı...
heç olarmı..?

Heç olarmı ata bir daha gəlməsin?
Ata bir daha olmasın?

Ağlayır uşaq, dörd yaşı var,
- Ata... ata... -, deyir uşaq
Basır onu bağrına ana:
- Ağlama bala, atan artıq
gəlməyəcək!
Ağlayır uşaq
Ağlayır ana...

Gəlməyəcək... gəlməyəcək...
Nə deməkdir gəlməyəcək?
Bax o çayın o tayında olsa ata
Dağ dalında qalsa ata
Lap hər yanda olsa ata
Gələcəkdir.

Harda ata?
Harda ata?
Bir yer var ki orda ata
Bax oradan gələcəkdir.

## GÖRÜŞ

Oturduq qarşı-qarşıya
İllər ötmüşdü aramızdan
Heç görmədən bir-birimizi.

Öncə mən söylədim bir az
Sonra o başladı danışmağa,
Dinləyərək onun sözlərini
Dolaşırdı üz-gözündə baxışlarım:

Enirdim bir cığırdan aşağı,
Dumanlı bir təpədən aşaraq
Bir bağa qovuşurdu cığır,
Soyuq bir külək titrədirdi yarpaqları,
Hardasa görünmədən
Yorğun-yorğun pıçıldayaraq
Axırdı bir arx,
Quşların dimdiyindən dəlik-dəlik
Bir cüt alma qalmışdı yalnız
Bir bağlıq meyvədən,
Həzin bir mahnı eşidilirdi
Uzaqlaşaraq.

Sonra baxaraq mənə gülümsədi
Bir az da sən söylə dedi.

## ASLAN, QUŞ VƏ İNSAN

Yalmanı qızıl xırman
Dişlərinə keçirdiyi maralın
Yırtılmış boğazından otlara
Süzülərək qan
Qocaman-qocaman
Ovdan qayıdır aslan.

Onu görüncə uzaqdan
Yolunu azmış adam
Şimşək yaxan kimi gecəni
Bir qorxu yaxır içini,
İri bir ağac
Sıx budaqları arasında
                    gizləyir onu.

Gəlir aslan
                    ağır-ağır
Və salır
O ağac altına ovunu!

Yalmanında açılmışdır
Qızıl-qızıl qan çiçəkləri,
Bayrağıdır vəhşiliyin, əsən yeldə
Dalğalanan birçəkləri.

Odlu diliylə gündüzün
Yalanmış qanadları
Yuvasına qayıdan quş
Budaqlar arasında görüncə adamı
Şimşək yaxan kimi gecəni
Bir qorxu yaxır içini,
Və enir
Ağac altında aslanın yanına,
Aslan yeyir ovunu
Quş da dimdikləyir hərdən
Yardım edir ona!

Qorxular içində adam
Gözləyir aslanın getməsini,
Aslan yalayır qızıl yalmanını
Gözləyir qaranlıqların gəlməsini,
Və onun yanında quş
Bir mürgüləyir
Bir qaldıraraq başını
Baxır adama,
Yaman diləyir yuvasını yaman
İçinə qan dama-dama.

## SABAHLARA QƏDƏR

Dedim nə gözəl olardı ah
Sabahlara qədər
Qollarımda!
İzlərimiz odlu
İzlərimiz dərin
Gecənin qaranlıq yollarında!
Dedimmi yalnız?
Yox, bağırdım da,
Heç duyulmadan səsim!

Dedi nə gözəl olardı ah
Sabahlara qədər
Saçlarımda!
İçin-için yanan
Dodaqlarımda,
Ən dərin yerlərimdə ah
Ən uzaqlarımda!
Dedimi yalnız?
Yox, bağırdı da,
Heç duyulmadan səsi!

O büzüşüb yatdı divanda
Mən qıvrılıb xalıda.

Gecə keçdi üstümüzdən ağır-ağır
Sabahlara qədər
Bir quş çırpındı qaranlıqda,
Uçmaq dilədi ah
Uça bilmədi ki!
Bir qanadı məndə qalmışdı
Bir qanadı onda.

# DOĞRU DOST

Yandırdın əlimi
Dəyincə əlimə
İlk sözündə söylədin son sözünü
Açıqca mənə.

Səni çox sevdim
Acı dostum
Doğru dostum
Gicitkənim!
Əlin dəyincə əlimə
Ürəyin dəydi əlimə,
Sonralara bürünmədin
İlk görüşündə elə
Göründün mənə.

## O QƏDƏR YOXAM Kİ MƏN

Mən gedəndən sonra
Danışdınız ardımca uzun-uzun
Bağlarınızı seyr edərcəsinə
Seyr etdiniz ömrümü
Mənsizcəsinə!

Bu ağacı quruydu dediniz
Bu ağacı yarpaqlandı
Amma kölgəsiz!
Bu ağacı meyvə verdi
Amma acı!
Quşlar deyil
İlanların yuvasıydı bu ağacı!

Bağlarınızı seyr edərcəsinə
Seyr etdiniz ömrümü
Mənsizcəsinə!

Mənim də sözüm vardı
Deyə bilərdimmi
Dilsizcəsinə?

İndi dinən sizsiniz
Dinməyən mən,
O qədər yoxam ki mən
Dillərinizi versəniz də mənə
Söyləyəmməm!

# FƏNƏRLİLƏR ƏFSANƏSİ

Ta uzaqlarından gəlirdilər gecənin
Əllərində fənərləri.

Bir gündüz bitincə
Başlar bir gecə,
Bir gündüzünmü sonundan
Başlamışdı bu gecə?!

Ta toxumundan
Ta ilkindən gəlirdilər gecənin
Əllərində fənərləri!

Yollar qalırdı ardlarında yollar…
Yollar boyunca qəbirləri
Yollar boyunca qanlı ləpirləri
Yollar qalırdı ardlarında yollar…

Budanmışdı
Qanamışdı əlləri,
Amma sönməmişdi heç zaman
Sönməmişdi fənərləri.

Yollar boyunca qanlı ləpirləri
Qaranlıqlar boyunca fənərləri…

Uca dağlar başından deyil
Deyil uzaq dənizlər ardından,
Addımlarından birdən
Addımlarından işıqlandı torpaq
Və aydınlıqlar bürüdü hər yeri.

Artıq, göylər vardı mavi
Torpaq vardı yaşıl,
Və qorxulu quyulardan gəlirdi işıq su
Uçurumlar ağzında nazlanırdı maral
Artıq, aşmışdı aydınlıqlar üfüqləri.

Amma onların hələ
Əllərindəydi fənərləri,
Əllərində deyil ah
Əlləriydi fənərləri!
Yanmırdı artıq
Tüstülənirdi acı,
Və örtürdü qaranlıqlar torpağı
Bürüyürdü göyləri,
Əllərində deyil ah
Əlləriydi fənərləri!

Bir də baxdılar ki
Nə günəş yanırdı
Nə fənərləri

## SƏRÇƏ NAĞILI

Gözəl bir bağın yaşıl bir ağacında
Yumaraq qanadlarını sıx-sıx
Kirimişdi sərçə:
,,Ah, nədən uçum deyirdi nədən,
Bir rahatca uçmaq olurmu ki!
Qanadlarım ilişər budaqlara
Uçunca!”

Gizləmişdi tüklərində dimdiyini:
,,Ah, nədən ötüm deyirdi nədən,
Bir könlümcə ötmək olurmu ki!
Mahnılarım getməz uzaqlara
Oxuyunca!”

Gözəl bir bağın yaşıl bir ağacında
Kimsə bilmədən qayğısını
Əyərək qəmli-qəmli başını
Kirimişdi sərçə.

Və bir gün
Tükəndi səbri sərçənin,
Açaraq qanadlarını uçdu
Və bir ormana qondu.
Orda meyvə ağacları deyil
Baş budaqları görünməyən
Hündür-hündür ağaclardı.

Qalın-qalın budaqlarda
İri-iri
Yuvalar vardı.
Ah nə bilinməzdi ormanın
Yarım qaranlıq yerləri
Nə qorxuludu!
Nə səslər yoxdu ki orada!
Hayqıran quş vardı
Ulayan quş!
Öz civiltisini eşitməz oldu sərçəcik
Sanki yoxmuş!

Qanad çalaraq birdən
Uçdu bir an,
Qoca bir palıdın gizli bir yerindən
Qalxdı tərlan!
İti caynaqlarda duyunca özünü
Yanar bir həsrət bürüdü hər yerini:
,,Aman gözəl bağım!”
Çığırınca sərçəcik
Susdu boğazında səsi,
Nə yaxşı ki bilmədi sonrasını
Dayandı nəfəsi.

# ÖLÇÜ

Mavi:
Dəniz qədər.

Dərin:
Göylər qədər.

İşıq:
Günəş qədər.

Uzaq:
Tanrı qədər.

Sonsuz:
Zaman qədər.

Bir anın içində yanan
O anın içində sönən:
İnsan qədər.

## UZAQLARDAN GƏLƏN AY

Gecələri, yatandan sonra hamı
Uzaqlardan yavaş-yavaş boylanırdı,
İncə-incə addımlarla, eşidilmədən
Gəlib şəhər üzərində dolanırdı.

Açıq bir pəncərəmi gördü bir yerdə
Enib gəlirdi ucalardan,
Yumşaq ayaqlarla yeriyirdi evlərdə
Kimsə duymadan.

Dayanıb süzürdü yatanları bir-bir
Mavi işıqlar üzlərinə saçılırdı,
Uyğular büsbütün qapalı
Uyğulara bir pəncərə açılmırdı.

Bir uyğuya girmək istəyirdi ay
Söyləməyə çox sözü vardı,
Ulu göylərdə, uzaq dənizlərdə,
                    qalın meşələrdə
Nələr görməmişdi ki ay!
Dodaqları sözdən yanırdı.

Dayanıb süzürdü yatanları bir-bir
Üzlərinə mavi işıqlar saçılırdı,
Gözləyirdi… gözləyirdi… gözləyirdi…
Uyğulara bir pəncərə açılmırdı.

Sonra boylanıb pəncərələrdən
qalxırdı göyə,
İşıq və iri gözləri dumanlaşırdı,
Parlaq gümüşdən yanaqlarında
bir solğunluq
Şəhər göylərindən uzaqlaşırdı.

## ÇƏLİK İZLƏR

Öncə qurdları boğdular
Sonra qırdılar xoruzları.

Nə aylı axşamların yalnızlığı ulandı
Nə sabahların aydınlığı banlandı.

Zamanı asdılar divarlarından
Amma zaman keçdi onlardan
Və içlərində çəlikdən
Ayaq izləri qaldı.

## ULU SÖZ

Gecə keçmişdi yarıdan
Birdənbirə yağdı qar,
Bu qarmıdır yalnız yağan?
Yoxsa ulu göylərin
Bir sözümü var?!

Bir an içində daxmalar qədər
Ağardı saraylar!

## UZAQ QALA

Ah nə gözəl görünürdü
Uca dağlar başında o qala!
Sıyrılaraq yanan buludlardan
Axşam işıqlarına bürünürdü.

Bir dilək dinirdi ürəyimdə:
Bir mən olum orda, bir də sən,
Görünməz olsun dünya
Üfüqlərimizdən.

Qapımızda durmasın gözətçilər
Mizraqlı, qalxanlı, dəbilqəli,
Dovşanlar oynasın orda,
                    ceyranlar otlasın,
Köpüklənən dağ çayları oxusun
                    mahnımızı
Ruhumuzda çağlasın.

Qaranlıqda kişnəməsin atlar
                    harın-harın,
Basılmasın qalamız,
Uzaq mahnıları olsun bir quşun
Laylamız.

Pəncərəmizdə dağ küləkləri
Və ulduzlu göylər olsun pərdəmiz,
Biz olmayan dünyada qalsın
                    zaman da,
Bir sonsuzluq içində biz.

Gündüzləri küpümüzdə uyuyan
                    qızıl şərab
Qədəh-qədəh oyansın gecələri,
Qurtum-qurtum içək, dərin-dərin
Ləzzətlərlə dolu sənələri.

Ah nə gözəl görünürdü
Uca dağlar başında o qala!
Sıyrılaraq yanan buludlardan
Axşam işıqlarına bürünürdü.

# ULDUZLARLA

Nə gecələr ki sabaha kimi
Ulduzlar oldu, mən oldum,
Əzirkən məni bu dünyanın işıqları
Onlarla ovundum.

Bir gecə də düşündüm ki,
Bəlkə tanrı peşman olduğundan
İnsanları yaratdığına
Ağlamış doyunca,
Və səpələnmiş gözyaşları
Göylər boyunca!

## SUDAN SONRA

Durmuş günəşli çəmənlərdə
Sudan çıxmış məmələr par-par,
Söyləyin Afroditə göylərdə
Yer üzündə ondan çox gözəlləri var.

Oturmuş mamırlı bir qayada
Qucaqlamış qolları boynunu,
Ey bütün canlılar, gözlərinizi
                                    verin mənə!
Bir görüm onu.

Enmiş mamırlı qayadan çəmənlərə
Qılçaları günəşli yollardır dikinə,
Ey bütün uzaqlarda birləşən yollar
Ayrıcınızı verin mənə!

# BİR AĞCAQAYINIMIZ VARDI

Pəncərəmizin önündə
Bir ağcaqayınımız vardı,
Qocamandı gövdəsi
Qolları yaşıl-yaşıl
Dörd yana uzanardı.

Baharlanardı pəncərəmiz,
Yarpaq-yarpaq naxışlanardı,
Yananda torpağın dodaqları
Sərin kölgələrlə dolardı.

Ay doğardı gecələri,
Qaranlığı gümüşlənərdi,
Göylərin yuvasız göyərçini
Budaqlarında dincələrdi.

Quşlar ormandan qucaq-qucaq
Mahnılar daşıyardı qoynuna,
Hər fəsil öz rəngini, öz gözəlliyini
Verərdi ona.

Sonbahar boyardı yarpaqlarını
Sonra qanadlandırıb uçurardı,
Oyanardıq sabahları
Balkonumuza rəng-rəng
Quş-yarpaqlar qonardı.

Pəncərəmizin önündə
Bir ağcaqayınımız vardı,
Qocamandı gövdəsi
Qolları yaşıl-yaşıl
Dörd yana uzanardı.

Bir axşam evə dönürkən
Ağcaqayınımız olan yerdə
Qaranlıq bir boşluq vardı!
Bir mişar uğuldadı içimizdə
Qəlbimizi doğradı!

Acı-acı ağladıq.
Ağcaqayınımız bizdə
Yıxıldıqca ucalırdı.

Bir mişar uğuldayacaq içimizdə
Bir mişar doğrayacaq qəlbimizi
Nə zaman söyləyirsək
Bir ağcaqayınımız vardı!

## DOSTUMUZ QURBAĞA

Bir yamacda ucalırdı evimiz
Dörd yanımız üzüm bağlarıydı,
Orda-burda evlər görünürdü
Onlara dırmaşan yollar varıydı.

Meynələrdən aslanırdı salxımlar
Bir yanda qırmızı, bir yanda sarı,
Günəş parıl-parıl
Şərabla doldururdu onları.

Terasda otururduq axşamları
San. Viktor dağında son işıqların
Sehirli oyunlarına dalırdıq,
Gəlib qoşulurdu bizə qurbağamız
O olurdu, gecə olurdu, biz olurduq.

Biz ona öyrənmişdik
                    o bizə,
Gözləyirdik onu gecikirkən,
Bir dost bilsək də onu
                    özümüzə
Nə şərabımızdan verə bilirdik ona
Nə yeməyimizdən!

Başını qoyurdu qollarına,
Sanki dəniz diblərində bir qaya
Sanki ulu göylərdə bir ulduz
Bir sonsuzluğa dalırdı özündə,
Mən süzürkən onu düşünürdüm
Varmı bu rahatlıqdan böyük
Bir bəxtyarlıq da
Yer üzündə?!

Artıq ayrılıq günü çatmışdı,
Hansı kolun kölgəsində
Qurbağamız dincəlirdi?!
Onunla vidalaşmaq istədik, nə yazıq!
Hələ axşam uzaqlarda uyuyurdu
Hələ göylərdən yerə od ələnirdi.

Gündüzləri sərin olsun
                    gecələri dərin,
Gözəlcə illər yaşasın qurbağamız,
Qışda üşüməsin, yayda pişməsin,
Nə bir insan toxunsun ona
                    nə bir heyvan,
Sanki dəniz diblərində bir qaya
Sanki ulu göylərdə bir ulduz
Özündə bir sonsuz rahatlıq daşısın
                    qurbağamız.

## QAR YAĞIRKƏN

Uşaqlar gəlin qartopu oynayaq!
Nə gözəl qar örtmüş hər yanı,
Əlimiz üşüyürsə qızdırarıq
Və daha çox sevərik sobanı.

Uşaqlar gəlin qardan adam qayıraq!
Yollar kənarına düzülsünlər,
Gülməz insanlar keçir yollardan,
Bir az gülsünlər.

Uşaqlar gəlin qardan evcik qayıraq!
Nə gözəl qar yağmış hər yana,
Evciyin içində bir şən uşaq
Baxsın pəncərədən
Yağan qar lopalarına.

## KARVAN

Artıq illər gəlib keçdi
Gördüyümdən o lövhəni:

Aylı qayalıqlardan keçirdi bir karvan
Dəvələr yorturdu yarım qaranlıqda
İri bir ulduz baxırdı ucalardan.

Uzaq dağlarda sökülәndə dan
İnsanları da quşları, çiçəkləri
                    qədər sevən
Bir ölkəyə varacaqdı o karvan!
Artıq illər gəlib keçdi
Gördüyümdən o lövhəni,
Görəsən o karvan
                o ölkəyə
                    yetdimi?!

## UZAQSIZ YAXINLAR

Heç qaçardımmı uzaqlara
Yaxınlar da
Uzaqlar olsaydı!
İnsanlar ağaclarla barışsaydı!

## QONAQ

Sizə qonaq gəldim uşaqlar!
Əllərinizə qonaq gəldim,
Əlləriniz yarpaq, kəpənək, su
Ta uzaqlardan qaçaraq gəldim.

Sizə qonaq gəldim uşaqlar!
Ayaqlarınıza qonaq gəldim,
Bütün yollarda nağıllara gedən
Ayaqlarınıza qovuşaraq gəldim.

Sizə qonaq gəldim uşaqlar!
Gözlərinizə qonaq gəldim,
Ən dəhşətli bombaları belə
Ən gözəl oyuncaqlar görən
Gözlərinizə sığınaraq gəldim.

Sizə qonaq gəldim uşaqlar!
Səsinizə qonaq gəldim,
Küləklərlə, quşlarla yan-yana
                    səsiniz,
Bu dünyanın səsindən usanaraq
                    gəldim.

## DUYMADAN

Küləklər uğuldayırkən gecələri
Dərin uyğudan diksinib oyanıram,
Bir ağlayanmı var bir yerdə?!
O yan-bu yana boylanıram.

Ağ buludlar keçir göylərdən
Bir bulud ayrılmış buludlardan,
Necə də tutğun, necə də yalnız!
Qaçıram ardınca, səsləyirəm,
Uzaqlaşır bulud, üzərimdə
Qalan kölgəsi ağır bir buz!

Nədən yanmaz yanaqlarımız
Bir yerdə odlu gözyaşlarından!
Kölgələr düşər üstümüzə daşdan ağır
Uzaqlaşıb gedər də, biz duymadan!

## UÇURUM

Sizinlə yaşadım uzun zaman
Yanınızda bir ormandım,
Budaq-budaq budanardım
Ağac-ağac doğranardım
Cınqırım çıxmadan.

Fırtınalar keçərdi gözlərimdən
Titrəmədən pərdələriniz,
İçim
      uğuldayardı səsimdən
Heç duyardınızmı siz?

Qaranlıq bir şüşədəydi divin canı
İşıq bir baxışınızla qırılacaqdı,
Günəşinizlə deyil, soyuqlarım
İsti bir gülüşünüzlə dağılacaqdı.

İndi bu uçurumun o tayında sizsiniz,
                  bu tayında mən,
Artıq boşluqlar var aramızda dərin,
Gecələriniz rahat olsun
                  gündüzləriniz şən,
Mənim də çox sevdiyim
         gecələrim var
                  və gündüzlərim.

## KÖÇ

Mənim də sizin kimi
Gözlərimdən qaçmış yuxum
Ağaclarım!

Mən də rahatsızam
Mən də qorxular içindəyəm
Qurdlarım, quşlarım!

Mənim da ağular axıtdılar
        damarlarıma,
Mahnılar deyil
Bombalar doldurdular
        qulaqlarıma
Ulu torpağım!

Mənim də qanadı gözlərim
Bu yerə baxmaqdan
Ulduzlarım!

Gəlin əl-ələ verib
Köçək göylərin
Ən gizli bir yerinə,
Yığıb aparaq özümüzlə
Keçdiyimiz yolları da,
Nə ardımızda bir yol qalsın
Nə bir iz birinə.

# DÖRD ADSIZ ŞER

Fərhud üçün

***

Uşaqlar oynadılar bağçada
Yoruldular,
Bir ağac altında yatdılar.
İndi üzlərində yarpaqların kölgələri,
Kölgələrə qonub uçan
İşıq kəpənəkləri.

***

Döydülər heç zaman
        döyülməyən bir qapını,
Qulaqlarına inanmadı
Qapı ardında olan,
Açdı qapını,
İki gülər gözlərdi yarım qaranlıqda,
Dodaqlarında bir işıq səlam,
Hər barmağının ucunda bir dost
                                        nəfəsi
Uzandı ona doğru bir əl.

***

Bir arı oldu bir ürək
Qondu bu dünyanın tikanlı
                    çiçəklərinə,
Qondu acı otlar üstünə,
Onlardan dumduru
Şipşirin
Bal çəkdi.

***

Ölüm
Ölümsüz qollarıdır anamız torpağın
O qollar arasında uyuyuruq
Bir daha oyanmadan.

# AĞACDƏLƏN

Ağacdələn döyəcləyirdi ağacı
Sürəkli səslər yayılırdı hər yanda,
Orman dərinləşirdi hər səslə
Mən gedirdim durduğum anda:

Çox uzaqlarda... çox uzaqlarda...
Yolların geri döndüyü bir yerdə
Bir ölkə başlayırdı ki orda
Ulduzlar günəş
    ağaclar quşlar
        sular balıqlar
            yellər qayalar,
Nə varsa torpaqda, nə varsa göylərdə
Bütün bir candı,
Mən də orda vardım, sən də.

## SONSUZ

Öncə gözlərini tanıdım:
Göylərə yüksələn bir yol,
Uzanan dənizlərə,
Və enən
        mavi bir yuxuya.

Sonra əllərini tanıdım:
Meyvələrlə dolu bir bağ,
Dalğalanan qızıl tarla,
Və bir cüt qanad
Burulğanların açıldığı yerdə.

Sonra saçlarını
Dodaqlarını
Dizlərini
Ayaqlarını,
Qaldımı tanımadığım bir yerin?

Dolaşdıqca səndə mən
Uzaqlaşdı üfüqlərin.

# KEÇ MƏNDƏN

Çiçəklənmiş ağacdır zaman
Yağan yağışdır
Əsən küləkdir
Gurlayan göy.

Sulanan almadır zaman
Torpaqdır istiləşən
Kölgədir qatılaşan.

Hər budağında nə qədər köç!
Hər cığırında nə qədər rəng!
Hər buluduyla uzaqlaşan.

Yağan qardır zaman
Donan sudur
Fırtınadır
Pəncərələrdə naxışlaşan.

Keçər kimi ağaclardan
Keç məndən ey zaman!

## QUCAQ-QUCAQ

Uşaqlar oynamaq istəyir
Onlara oyuncaq verin!

Yem arayır balalarına ağacdələn
Ona qalın gövdəli
Yamyaşıl
Bir qovaq verin!

Nəsil-nəsil dağlar ardında
Qopuz çalan ixtiyar bir ozan gördüm,
Ağ saçları əsən yeldə dağılırdı
Qopuz çalıb oxuyurdu:
,,İndi hanı dediyim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi...”
Mahnıları duman olub
                    dağ belinə sarılırdı.
Mən də onun kimi
Yaşamla, ölümlə danışmaq istəyirəm,
O ozanın dilindən mənə
Qucaq-qucaq verin!

## AĞAC, TOSBAĞA VƏ İNSAN

Bir ağac gördüm
Min il yaşamışdı,
Qalın-qalın budaqları
Zamanlardan ağırlaşmışdı,
Torpağa sığmamışdı kökləri
Torpağın üzərinə çıxmışdı,
Qocaman gövdəsindən
Uşaq barmağı qədər incə
Uşaq barmağı qədər yaşıl
Zoğ atmışdı.

Bir tosbağa gördüm
Çanağı böyük bir qazan!
Uzun illərdən keçmişdi,
Yırtıcı balıqlar görmüşdü ömründə,
Naxışlı çanağı
Gəmirilmişdi, didilmişdi,
Fırtınalar olmuşdu yatağı
Dalğalar döymüşdü,
İndi dincəlirdi qumlar üzərində
Sualtı mağaralar
Və mavi dalğalar keçirdi
yuxusundan.

Və bir insan gördüm
Çox qocalmışdı,
Otuzuna çatmışdı
Bütün illərini yaşamışdı!

## DOVŞANIM

İşdən dönürkən qardaşım
Tarlada görmüşdü,
Bir torbaya salaraq
Evə gətirmişdi.

Nə qədər sevindim,
Nə qədər sevindim!
Dovşanım deyə çığırdım,
Ay gəlin, ay gəlin!
Dostlarımı çağırdım.

Uzun qulaqları vardı
Özü bambalaca,
İki duru muncuqdu gözləri
Quyruğu azca!

Oxşadım, öpdüm dovşanımı,
Sevinmədi!
Ad verdim, səslədim adını
Tərpənmədi!

Su verdim, süd verdim
İçmədi!
Yarpaq verdim, ot verdim
Yemədi!

Bir səhər gözlərimi açırkən
Gözlərini açmadı dovşanım!
Əllərimi bir-birinə çalırkən
Qaçmadı dovşanım!

Nə qədər ağladım,
Nə qədər ağladım!
Dovşanımı istəyirəm söylədim!
Nədən yaşamadı dovşanım?!
Bilmədim!

Anasını səsləyirmiş,
Eşitmədim!
Tarlasını istəyirmiş,
Bilmədim!

# DƏLİ OĞLAN

Gözyaşını güldürərdi
Qaranlıq buludlardan
                    işıq endirərdi
Al-əlvan geyərdi
Qara geyəndə zaman.

,,Çox dəlimi, ya çox ağıllımı?!”
Düşünərdi hamı.
Kim tanımazdı ki
Dəli Oğlanı!

Bayram idi,
Gülməyən dodaqlar da gülürdü,
Açılmayan ağızlar da danışırdı,
Gülüşlərin, öpüşlərin şən səsi
Quşların mahnısına qarışırdı.

,,Gördünüzmü Dəli Oğlanı?”
,,Görmədik!”
,,Eşitdinizmi Dəli Oğlanı?”
,,Eşitmədik!”

Yolmu qaldı, kolmu qaldı!
Aradılar...aradılar...
Soyuq bir kölgədə tapdılar!
Nə dinirdi, nə gülürdü
Dəli Oğlan.

Oxşadılar, könlünü aldılar,
                    və sordular:
,,Bu gözəl bayram günündə
Nə oldu sənə Dəli Oğlan?”
,,Görmədininzmi! - Söylədi,
Görmədininzmi öldü bir il
Nədən olmadı ona bir ağlayan!”

## QIZ KÖRPÜSÜ

Deyirlər bir zaman
Gözəl bir qız tikdirdi səni
Bu daşqın sular üzərində,
Bir çobana könül vermişdi o qız,
Çoban ney çalarmış təpələrdə,
Ney səsi olduqca gözəl
Olduqca şirin
Səslənərmiş qızın ürəyində.

Bu suları aşmaq üçün,
Çatmaq üçün çobana
Hökmdarın gözəl qızı
Bu körpünü qurdurur burada;
Və qovuşur sevdiyi oğlana.

İndi bu körpüdən nə karvan keçər
Nə gedən gələr vətənə,
Baltalanmış meyvəli bir ağac kimi
Baxar gəlib keçənə!

Səni bir vətən qızı tikdirdi burada
Səni mən vətən oğlu
                    qoruya bilmədim!
Gəlmələrin baltasından qırıldı belin
Ey ulu ağacım, ey mənim taleyim!

Dağılmış kərpiclərinə baxdıqca mən
Qopar sümüklərim bir-birindən,
Qan yaşlar tökülər dədəm
Qorqudun gözlərindən!
O vətən qızını düşündükcə
Utanaram özüm özümdən!

Bu sular üzərində səni
Bir daha qurulmuş görməyincə mən
Bu yara heç zaman sağalmayacaq!
Sənin üzərindən azad ölkəmə
Bir gün alnı açıq keçməyincə mən
Bu ağrı heç zaman azalmayacaq!

## BİTİRİLMİŞ YOL

Yırtıcı heyvanlarla qaldım gecələri
Köpürən çaylardan keçdim,
Qurdların-quşların içdikləri
Yosunlu bulaqlardan içdim.

Boğazıma bu kəndiri
Aradığım əllər keçirdilər,
Həm də çox sevərdim o əlləri
Onlar bu yolu bitirdilər.

# BİR EVİM

Bir evim olaydı mənim
Pəncərəsi açılaydı mənə,
Əlim çataydı dağlarıma
Gözüm enəydi dərələrimə.

Bir evim olaydı mənim
Pəncərəsi açılaydı sənə,
Qərib bir ölkə, qərib yollar
O yollardan biri gətirəydi məni
Səndən mənə.

## GƏLDİM

Dağlar altındakı qaranlıqdım
Bir işıq dilədi ürəyim
Əllərindəki nura gəldim.

Bir torpaqdım
Nə qədər susuz!
Qaça-qaça səsindəki
Suya gəldim.

## BİR GÜN

Bir gün yumursam gözlərimi
Ağaclar yaşayacaq məni,
Quşlar
Ormanlara salacaq səsimi.

Bir gün yumursam gözlərimi
Çiçəklər
Doymaz arılarda duyacaq məni,
Qayalar
Sonsuz bir düşüncə içində
Susacaq məni.

# SƏNİ GÖRMƏYƏ GƏLDİM

Səni görməyə gəldim,
Qatar-qatar durnalar uçurdular
Saralmış ormanlar üzərindən
köçürdülər.

Səni görməyə gəldim,
Bir qayanın önündə bitdi yolum
Qayanın ardından buludlar keçirdilər.

Səni görməyə gəldim,
Yel apardı yarpaqlarla yolları
Varılmaz oldu ölkələr.

Səni görməyə gəldim,
Qar hörmüşdü bir qapını
Əlləri unutmuşdu pəncərələr.

# YATMIŞ UŞAQ

Uzaq kölgələrdəydi kirpikləri
Gözqapaqları altında axırdı yuxu
Bir yay günüydü yatmışdı uşaq:

Bəlkə mağarasında yatırdı ayı
Bəlkə üzüm yeyirdi dərələrdə,
Almaların qoxusuyla
                    dolmuşdu bağ.

O kölgəli göl çox qorxuludur
Ayılar ordan su içərlər,
Ora yaxınlaşırsa qorxacaq.

Anası almaları doldurdu səbətlərə
Səbətləri çatdılar göy ata
Közərə-közərə qaldı ocaq.

Bir azdan aşacaqlar gədiyi
Öncə axşam yeməyi
Sonra şirin-şirin yatacaq.

## BİR MAHNI GƏLDİ

Bir mahnı gəldi, bilmirəm hardan
Açdı bağlı qapılarımı
Bütün səslərin ardından gəldi.

Qar yağmışdı bir yola
Bir cüt ayaq qalmışdı altında
Donmuş damarlarına qan gəldi.

Bir budaq ayrılmışdı fəsillərdən
Uzaqlardan keçirdi bahar
Gövdəsinə yaşıl bir zaman gəldi.

Boz boşluqlara açılırdı pəncərə
Gözlər usanmışdı baxmaqdan
Mavi işıqlar ucalardan gəldi.

Bir bulaq diləyirdi suyunu
Nədən dağlarda ərimirdi qar!
İşıq su qaranlıqlardan gəldi.

## ÜRƏYİM ONDA QALDI

Artıq nə gizləyim
Doğrusunu deyim sizə
Bütün güllərdən gözəl bir gül vardır
Ürəyim onda qaldı.

Bir yol var gedər yağışa
Bir yol var gedər günəşə
Hər ikisinə varan bir yol vardır
Ürəyim onda qaldı.

Bir gül var bitər aydınlıqda
Bir gül var bitər qaranlıqda
Hər ikisini arayan bir əl vardır
Ürəyim onda qaldı.

Bir mahnı var səssizlikdən gözəl
Səssizlik var mahnıdan gözəl
Hər ikisini yaradan bir dil vardır
Ürəyim onda qaldı.

# GÖZLƏRİNİN SƏSİ

Gözlərinə baxıram:

Yaşıl çəmənlərdən
Kəpənəkləri ayırmaram,
Bir tumurcuq uyuyur
Bağırmaram.

Gözlərinə baxıram:

Nədir bu qanadlanan
Köksümdə?!
Bu çiçəklər sərxoş etdi məni
Olmadan heç yerdə.

Gözlərinə baxıram:

Unutmaq nə varsa bu dünyada
Tam bu gözlərlə olmaq üçün,
Günəşlə dolan bir salxım üzüm kimi
Bu baxışlarla dolmaq üçün.

Gözlərinə baxıram:

Nədir bu iki dilsiz göz?!
Ki bütün dillərin ən işıq sözüdür.
Bir səs dinləyirəm
Bəlkə bir balıqdandır mavi sularda,
Bəlkə rəngindəndir
          bir zümrüdün,
Bəlkə bir şirin yuxudan?!

Gözlərinin səsidir.

## ARDIMIZDAN

İri-iri sümüklər qaldı
O azman varlıqlardan.

Necə su içərmişlər,
Necə sevişərmişlər?!
Sorma irmaqlardan,
Sorma ormanlardan!

İki dəniz qalsın
          ardımızda bizim
Biri qandan olsun,
Biri gözyaşından.

## SƏNSİZLİK ÇİÇƏYİ

Pəncərəmdə sənsizlik çiçəyi
Yandırar qoxusu ürəyi.

Əlin bütün qanadlarda
Yağdı qar, indi quşlar harda!

Yollar heç nə gətirmir
                    hər nəyi aparır
Bütün gedənlərdə sənsizliyin vardır.

Ayaqların oyatsın qış yuxusundan
                              yolları,
Pəncərəmdəki çiçək görməsin
                              baharı!

# MƏN SƏNİ GÖZLƏYİRDİM

Qayalar çiçəklənirdi
Dağlar dərələrə enirdi
Mən səni gözləyirdim.

Soyuq kölgələr əriyirdi
Qaranlılar işığa gəlirdi
Mən səni gözləyirdim.

Günəş açırdı qızıl tülünü
Tumurcuqları bələyirdi
Mən səni gözləyirdim.

Ormanlara, bağlara
Yaşıl əllər gəlirdi
Mən səni gözləyirdim.

# TORPAQ DÖYDÜ QAPIMIZI

Biz gələndə qar yağırdı, quş ötmürdü
Gül açmırdı, su axmırdı.

Günlərimiz vardı hələ çiçəklənəcək
Bir-birindən gözəl yollarımız vardı.

Tam mavilərini axırdı indi sular
Və güllər tam rənglərini açırdı.

Bağlarda quşların ötdükləri
Ən sevdalı mahnılardı.

Önümüzdə yollar, bir-birindən gözəl
Sonsuzluğa uzanırdı...

Torpaq döydü qapımızı, və bir duman
Qaranlıq-qaranlıq bizə sarıldı.

## HƏLƏ İNSAN YOXDU

Daş göyə çıxmazdı
Quş çıxardı,
Daş dəyməzdi quşa
Quş dəyərdi daşa
Ona qonurkən,

Hələ insan yoxdu!

Aslan eşşəyi budayardı,
Eşşək qar altında qalardı,
Daşqın sularda boğulardı,
Amma ümidlə yaşayardı,
Əlbət ki qarşıda bahar vardı,
Taleyindən usanmazdı,
Tanrısını qarğımazdı,

Hələ insan yoxdu!

Tanrı hələ yanılmamışdı
Hər bir işi
Bir-birindən gözəldi,
Dənizlərin altını
Torpağın üstünü
Dərin sevgiylə bəzərdi,

Hələ insan yoxdu!

Dəniz yatardı, oyanardı
Dənizin qocaman bir yasası vardı,
Sonsuz sularda hər balığın
Öz yurdu, öz yuvası vardı,
Yeyərdi, yeyilərdi,
Və hər balıq
Öz taleyilə bəxtiyardı,

Hələ insan yoxdu!

Çaylar istədiyi kimi axardı,
Ağaclar fəsillərin yolunu tanıyardı,
Ana baxar kimi balaya
Göylər torpağa baxardı,
Buludlardan yerə
Ancaq yağış yağardı, qar yağardı,
Havada hələ
Hava vardı,

Hələ insan yoxdu!

## SORDUM SƏNİ

Buğda tarlalarından sordum səni
Çörəkdədir
Dedilər.

Üzüm bağlarından sordum səni
Şərabdadır
Dedilər.

Çörəklə yaşatdın məni,
Unutdurdun mənə şərabla
Unutmaq istədiklərimi.

## KİMSƏ YOX

Gözlərini tanıdım yarım qaranlıqda
Bir gözlərindi o ormanda,
Kimsə yox.

Tam ormandan baxırdı gözlərin
Bir mən bilirdim nələr var onlarda,
Kimsə yox.

Heç bilməzdim ağaclardan
                    keçir yolun,
Bir mən anladım o anlarda,
Kimsə yox.

Gözlərində duyduğum gülüşü
                    mən duydum
Orda kölgələrdə, işıqlarda,
                              hər yanda,
Kimsə yox.

# DAĞ, DƏNİZ VƏ BİZ

Dağlar gedirdilər zamanla
Qocaman izləri özlərində qalırdı,
Dəniz çəkilib qabardıqca
Köksündə sonsuz zamanlar
nəfəs alırdı.

Biz keçirdik buludlarla
Kölgəmiz yer üzündə sürünürdü,
Ardımızdan bir an havada
Boş yerimiz görünürdü.

## İLKİNDƏ

Qocaman bir ağacım vardı
                    sığınardım ona
Bir əl baltaladı, yox etdi.

Yorğun ayaqlarımı saldım axar sulara
,,Mənimdir bu sular!”
Bir bağırtı içimi titrətdi.

Ən gözəl bir yerə aparırdı
                    yolum məni
Yasaq daşları ayaqlarımı büdrətdi.

Əlləri mələk əlləri, utandırardı
                    çiçəkləri
Qəlbində bir küp qarısı özünü
                    gizlətdi.

Bu sonsuz, bu doyulmaz
                    yolların ilkindəyəm
Bir də baxarsınız ki, mənim də
                    yolum bitdi.

## DAĞLAR

Nə qədər sevirəm mən dağları!
Sanki qayadan bir uşaqmışam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki başı qarlı olmuşam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki ulduzlarla danışırmışam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki sonsuz düşüncələrə
dalırmışam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki min illərin karvanına
baxırmışam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki ölümsüzlüklə yarışırmışam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki ölmüş tanrıları anırmışam
Qarnında anamın.

Nə qədər sevirəm mən dağları!
Sanki dərin bacım dənizə
                    ulu qardaşıymışam
Qarnında anamın.

# O SUSAN

Boşaldı damar-damar işıqlardan
Qorxunc kölgələrlə doldu birdən.

Buludlar hayqırıb kimi səslədi ki
Diksindi göylər, sarsıldı dərindən.

Yellər itirdi bir an yolunu
O çılğın hayqırışı dinləyirkən.

Buludların çağırışında mən də vardım
O susanda, o dinməyəndə vardın sən.

# DAŞ KİMİ

Daş kimiydi bir ürək
Torpaqdan heç
Ayrılmazdı.

İnanardı ona,
Dincəlsin deyə qanadları
Qonardı üstünə,
Quşlar ondan qorxmazdı.

Daş kimiydi bir ürək
Tam ağırlığıyla qucaqlayardı torpağı,
Tam ortasında duyardı günəşi,
Mahnılara yaxın qonşu,
Susqunluğunda ulduzların
                    uzaq səsi vardı,
Günəş qədər qarı da
Özündə duyardı.

Daş kimiydi bir ürək
Hər nəyə məhək daşı,
Onda həm yağış görünərdi
Həm bir damla gözyaşı.

# ADINI

Adını axar sular verdilər
Durmadan axsın dedilər!

Adını günəbaxanlar verdilər
Günəşlə olsun dedilər!

Adını ağaclar verdilər
Fəsillərlə nəfəs alsın dedilər!

Adını çiçəklər verdilər
Öz qoxusu olsun dedilər!

Adını gecələr verdilər
Qaranlıqlarına dalsın dedilər!

Adını göylər verdilər
Sonsuzlara açılsın dedilər!

Adını yağışlar verdilər
Yaşıllıq daşısın dedilər!

Adını ölmüş sevənlər verdilər
Bizi də yaşasın dedilər!

## ÖLÜMÜN RƏNGİ

Aradım rəngini ölümün
Qaradır dedilər, qapqara;
Əriyər orda mavisi göyün,
Qaralar rənglər tökülürkən ora.

Dibsiz bir yuxudan keçər kimi
Keçdim ölülər dünyasından,
Nə qarabasmalar uçurumu
                    sarsıtdı məni
Nə röyalar çiçəyi qoxuladım.
Varmıdım mən, yoxmudum?!
Bir rəngimi vardı ölümün?!
Heç nə duymadım.

Qapqara deyilmi bağrı torpağın?
Bütün rənglər oradan gəlir,
Ən gözəl işıqlarına varsın deyə
Günəş qaranlıqların qoynuna enir.

## BAYRAQLAR YOX OLURKƏN

Bir sabah oyanırkən insanlar
Bütün ölkələdə bayraqlar
Yox olmuşdu,
Bir heyrət dolaşırdı yer üzündə:
Bayraqlara nə olmuşdu?!

Hər ölkə arayırdı öz bayrağını,
Dirəklər donmuş skeletlərdi,
Bir ruzgar əsirdi qərib-qərib
Sonsuzluğun qoxusu gəlirdi.

Qocaman bir xışıltı duyuldu ucalarda,
Baxışlar göy üzündə dolanırdı,
İşığın qızıl dirəyində ulu göylər
Mavi-mavi
Dalğalanırdı.

## UÇAN QƏLƏM

Qanadları qar kimi ağ
Dimdiyi çiçək kimi qırmızı
Uçurdu qələm,
Bu dünyanın üzərindən
Keçirdi qələm.

Bütün qələmlər dayanmışdı
Gözlənirdi o an.
Kitablar
Oyanmışdı sonsuz yuxudan:
Nə zaman qələm qonacaqdı
Nə zaman içlərindəki o boşluqlar
Dolacaqdı?!

Qanadları qar kimi ağ
Dimdiyi çiçək kimi qırmızı
Uçurdu qələm,
Bu dünyanın üzərindən
Keçirdi qələm.

O hündür bir yerə qonacaqdı,
Bütün canlılarçın
cansızlarçın
varlıqlarçın
O söylənməmiş ulu mahnıları
Oxuyacaqdı
Oxuyacaqdı...

# DÜNYA BİR PƏNCƏRƏDİR

BAYATI

Nə qədər yaşlar axdı gözlərdən
Ürək yanırkən gecələri,
Bütün o gözyaşlarından
Bir damla qaldı bizə
Bunca odlu, bunca diri!

Nə qədər acılar çəkdi gəlinlərimiz
İpək saçları pəncəsində düşmənlərin!
Bütün onlardan bir an qaldı bizə
Bunca keçməz, bunca dərin!

Nə qədər dar ağacları quruldu
meydanlarda,
Boğazlarda haqq səsini
boğmaq üçün!
O səslərdən bir neçə söz qaldı bizə,
O sözlərdə hayqırar onlar
İçin-için.

Nə qədər marallar yalvardı ovçulara
Döşlərində süd, gözlərində qayğıları!
Bütün onlardan bir yalvarış qaldı
bizə,
Azalmaz heç yanğıları!

Nə qədər boz dumanlar
sardı dağ başını
Qürbət yollarına qar yağırkən,
Bir dilim alov qaldı bizə
O həsrətlə yanan könüllərdən!

Nə qədər pəncərələr açıldı
qaranlıqda,
Nə qədər yanaqlar yandı
əllər titrədi!
O öpülən, o gözyaşına bürünən
çiçəklərdən
Bu solmaz, bu sehirli
çiçək qalır indi!

SU GƏLİB AXAR GEDƏR,
QAYALAR YIXAR GEDƏR,
DÜNYA BİR PƏNCƏRƏDİR
HƏR GƏLƏN BAXAR GEDƏR.

Xızır peyğəmbər aradı
Tapdı ölümsüzlük suyunu,
Nə acılar çəkmədi ki o bu yolda!
Bir gün qapandı üzünə bu pəncərə
Onun da!

Ulu-ulu saraylardan
Bir neçə kərpic qaldı!
Bir sultanmı, bir çobanmı
Açıldı bir an bu pəncərə
Sonra qapandı!

Gözəllər gəlib baxdı bu pəncərdən
Sular səsləri kimi axdı,
Saçları oyatdı yatmış küləkləri,
Baxışları şeytanda
Mələklər oyatdı,
Qapandı üzlərinə bu pəncərə,
Bir çınqıl ki, dənizin
Dibinə batdı!

Bir pəncərə ki
Hər gələnlə açılar
Hər gedənlə qapanar,
O tayında qoca dünya
                    sonsuz zaman
Bu tayında kim qalar!

QAPIDAN BİRİ GƏLİR,
GÖZÜMÜN NURU GƏLİR,
BU ARXI KİM ARIDIB
SU BELƏ DURU GƏLİR.

Güzgü nədir hələ bilməzdilər
Göstərə-göstərə maral baxışlarını
Axıb gedərdi.

Axar sularda ağarardı birçəkləri,
Axar sularla gələrdi qanı
Gedib dönməyən igidlərin!
Axar sular yuyardı gözyaşlarını.

Adları vardı analarımızın
Bir adı da hər birinin
Axar Sulardı.

Axar sularla oynayardılar
Axar sularla böyüyərdilər
Axar sularla yuyardılar
                    qan tərlərini
Axar sularla sarıyardılar
               könül yaralarını,
Axmayanda yer üzündə
Göylərə yalvarardılar.

Adları vardı babalarımızın
Bir adı da hər birinin
Axar Sulardı.

DAĞLARIN GÖY ÇƏMƏNİ,
SƏRİNDİR GÖY ÇƏMƏNİ,
YA MƏLƏRƏM TAPARAM
YA VURAR OVÇU MƏNİ.

Ulu dağları aşardılar
Uzaq yollardan keçərdilər,
Ürəkləritək qabarlı dodaqları
Bulanıq sulardan içərdilər.

Aramaların ən gözəliydi
Aramaq sevgilini!

Qar altında qalardılar
Yanar ürəkləri donmazdı,
Qurdlar, quşlar gördünüzmü yarımı?
Xəbər verən olmazdı.

Aramaların ən gözəliydi
Aramaq sevgilini!

Saz çalardılar, söz qoşardılar
İniltiləri ağladardı daşı!
Yollar boyu ürək qanı
Yollar boyu gözyaşı.

Aramaların ən gözəliydi
Aramaq sevgilini!

Qollarını arxalarında bağlardılar
Boğazlarına kəndir keçirilərdi,
Son anlarında buludlarda, havada
O ala gözlər görünərdi.

Aramaların ən gözəliydi
Aramaq sevgilini!

BAĞA GİRMƏRƏM SƏNSİZ,
GÜLÜN DƏRMƏRƏM SƏNSİZ,
BAĞDA QUZU MƏLƏSƏ
BİL Kİ O MƏNƏM SƏNSİZ.

Onlar yaxınlaşırkən
                    səs uzaqlaşırdı
Bağlardan keçirdi, dağ aşırdı,
Mələdi bir quzu yanıqlı-yanıqlı.

Dayandı atlar, yoruldu
Günəş qayğılı bir göz oldu,
Mələdi bir quzu yanıqlı-yanıqlı.

Bir pərimi, bir quzumu, nəydi?!
Qaranlıqlar axar sulara endi,
Mələdi bir quzu yanıqlı-yanıqlı.

DAĞLARA ÇƏN DÜŞƏNDƏ,
GÜL ÜSTƏ NƏM DÜŞƏNDƏ,
RUHUM QƏFƏSDƏ OYNAR
YADIMA SƏN DÜŞƏNDƏ.

Dağ başında duman
Yollar itmiş çəndə,
Diləyir onu diləyir.

Ürəyi bir çiçək
Ağırlaşmış nəmdə,
Diləyir onu diləyir.

Baxışları buzdan
Naxışlar pəncərədə
Diləyir onu diləyir.

SUYA GEDƏN İKİDİ,
SAÇI MƏXMƏR TƏKİDİ.
TANRI, MƏNİ SU ELƏ,
SU GÖZƏLLƏR YÜKÜDÜ.

Layla çalırdı mışıl-mışıl
Beşikdə yatan körpəsinə,
Duru sulardandı sözləri.

Addadılar üzərindən axar suyun
Bir ağırlıq, bir qaranlıq endi suya,
Duru sulardandı özləri.

Əyilib baxdı pəncərədən
Salxım saçlarında gecə,
Duru sulardandı gözləri.

AÇIQ QOY PƏNCƏRƏNİ,
GÖZÜM GÖRSÜN GƏLƏNİ,
NECƏ QƏBRƏ QOYARLAR
YAR DƏRDİNDƏN ÖLƏNİ.

Heç durmazdı yerindən
O da durdu birdən:
- Açın bu pəncərəni!

Ağ saqqalında zaman,
Köksündə duydu birdən
O susmuş, dinməyəni.

Ulu bir toxum kimi
Torpaq aldı qoynuna
Yar dərdindən öləni.

BU DAĞLAR ULU DAĞLAR,
ÇEŞMƏLİ, SULU DAĞLAR,
BURDA BİR QƏRİB ÖLÜB
GÖY KİŞNƏR, BULUD AĞLAR.

Uzaqlardan keçdi
Bir qaraltı amma,
Tanıyan olmadı.

Hayqırdı da göylər:
- Kimdir yatan burda?
Tanıyan olmadı.

Boşaldı bir daxma
Yanmadı bir lampa,
Tanıyan olmadı.

SU ÜZÜNDƏ NANƏYƏM,
GÜL ÜSTƏ PƏRVANƏYƏM,
YAMAN SƏNSİZLƏMİŞƏM
DƏLİYƏM, DİVANƏYƏM.

Cığırından keçilməzdi
Bulağından içilməzdi
Uzaq düşmüş bir nanədi.

Dərəsinə enilməzdi
Çiçəyindən dərilməzdi
Unudulmuş pərvanədi.

- Bu cığırdan keçdi bəlkə!
- Bu dərəyə endi bəlkə!
Ömür keçdi, o gəlmədi.

## QALAN İŞƏ QAR YAĞAR

atalar sözü

Meyvələr şipşirin, iri
Dərərəm dedi, dərmədi ki,
İndi qar yağır budaqlara.

Ağac bağçada qupquru
Odun-odun bölmədi ki,
İndi qar yağır otaqlara.

Sözü vardı inci-inci
Susdu amma, dinmədi ki,
İndi qar yağır dodaqlara.

# ALƏMİN YATAN VAXTI

## Azərbaycan əfsanələri

# DONAN BULAQ

Dolaşa-dolaşa dağları
Yanır ürəyi çobanın
Cadar-cadar olur
Quru dodaqları.

Nə göydə bir əlçim bulud
Nə yerdə bir sərin kölgə,
Sehirləndimi sular
Quş olubmu uçdular?!
Ürəyi yana-yana
Vurnuxur çoban hər yana.

Bir qaya dibində birdən
Qaynayan bir bulaq!
Heç inanmaq olarmı buna?
Cənnətmi qapısı
Açıldı çobana?!

Sərin sulardan içərək
Qana-qana
Sönür içindəki od,
Sonra qalxır çoban:
- Azmı bu dünyada axar sular?
Söyləyərək öz-özünə
Murdarlayır bulağın suyunu
Və uzaqlaşır ordan.

Hələ sürüyə çatmadan
Yanır yenə ürəyi,
Dönür gəldiyi yolu
Bulağa doğru çoban.

Günəş mıxlanmış artıq
Ortasına göyün,
Qor tökülür torpağa
Od tutub yanır hər yan.

Daşdan yonulmuş kimi
Çoban durur orada:
Qaynar bulaq donmuş!
Axar sular harada?!

## DAMCILI BULAQ

Sevə-sevə
Qorxa-qorxa ötmüşdü illəri,
Gizli yerlər olmuşdu
Və kimsəsiz dərələr
Görüş yerləri.

Oğlan
Təkbaşına biçirdi
Qızıl sünbül zəmiləri,
Yellənirdi kürəyində qızın
Salxım-salxım hörükləri.

Oğlan yoxsuldu
Qız varlı,
Varlı qızı
Yoxsul oğlana verərlərmi?

Son işıq da sönürkən,
Sevgilisindən əli üzülən oğlan
Atır bir gün özünü
Uca bir qayadan!

O qaya başında keçir
Ömrü qızın,
Gözyaşları içində açılır səhərləri
Gözyaşları içində yumulur gecələri.

Və bir gün
Açılmaz olurkən gözləri qızın
Bir göz açılır qayanın dibindən,
O talesiz sevən qızın gözyaşları
Damcı-damcı axıb gedir,
Damcılı bulaq qalır o gündən.

## GƏLİN DAŞI

Qoynunda körpə balası
İndi gəlin
Murov dağını aşırdı,
Əsən yellər, narın-narın
Üz-gözündə dolaşırdı...

Kəndlərində ata-anası
Onun yolunu gözləyirdi,
,,Bax, bu dağı aşırsam
O yoldan da keçirsəm!...”
Öz-özünə söyləyirdi!

Narın-narın əsən yellər
Artıq uğuldayırdı!
Ana kimi öpən yellər
İndi qamçılayırdı!

Qorxu birdən sardı onu:
,,Aman tanrım, qıyma mənə!
Azğınlaşan dəli yellər
Qoyma toxunsun körpəmə!”

Yel sovurdu sözlərini,
Göylə torpaq bir-birinə qarışdı,
Minlərcə əl dartdı onu
Canında güc qalmamışdı:

,,Aman tanrım, balam gedir əlimdən
Artıq gücüm qalmadı!
Daş et məni, bilməyim!”
Yana-yana ağladı.

Qoynunda körpə balası
Yerindəcə daş oldu gəlin!
Yellər dartdı harın-harın
Sarsılmadan
        qaldı gəlin!

## BEŞİKLİ DAĞ

Uca bir dağ başında
Yatırdı oba,
Ay dolanırdı göy üzündə
Susmuşdu gecə quşu da.

Qanlı döyüşlərdan uzaq
Yanında xoşallanan Bozdar köpəyi
Qarşısında otlayan qoyunları
Və yəhərli atı
Çoban söykənmişdi əlindəki çomağa,
Və dalmışdı
Bilinməz bir uzağa.

Varmı dünyanın bir gecəsi
Ki oyaq olmasın bir ana?!
Yenicə uyumuşdu körpəsi
Ana layla çalırdı ona.

Kirpikləri yuxudan ağırlaşmış
Qadın uzandı yatağa,
Bu səsmidi, yoxsa xəyal?!
Bir an daldı uzağa.

Bir səslər sezilirdi uzaqlardan
Get-gedə ucalırdı,
Bir qorxu böyüyürdü içində onun
Bu nə səsdi?!
Anlamırdı.

Tappıltı səsləri... at kişnəmələri...
Ananın titrəyirdi ürəyi, əlləri,
Uzaqda oynaşan görürdü budur
Yaxınlaşan kölgələri...

Bir azdan dərin yuxudan oba
Dəhşətlər içində oyanacaqdı,
Beşikdə uyuyan körpəsi
Al qanına boyanacaqdı!

Qaldıraraq göylərə əllərini:
,,Aman tanrım, daş et bizi!”
                                        Yalvardı,
Göylər dinlədi onun səsini
Daşa döndərdi nə vardı.

Qan-tər içində atları düşmənlər
Dayandılar qarşısında daş obanın.
Ay donmuşdu sanki göy üzündə,
Daş beşikdə yatmışdı daş uşaq
Yanında daş ananın,
Daşdan qoyunları, daşdan köpəyi
Daşdan yəhərli atı
Dayanmışdı yanında daş çobanın!

## TÜTƏK SƏSİ

Azmı sevən vardı
Şirvan xanının gözəl qızını?!
O da sevirdi əlbət,
Onun da sevdiyi bir
Oğlan vardı.
O nə bir bəy balası
Nə bir xan oğluydu,
O yoxsul bir çobandı,
Dağlarda, yamaclarda
Qoyun otarandı.

Bunu bir gün
Eşidir xan,
Harın-harın çeynəyir bığlarını,
Gözlərində qan
Sözlərində qan:
- Mənimmi qızım sevsin
Ac bir dilənçini!
Mənimmi qızımı sevsin
Lüt bir çoban!
Gözlərində qan
Sözlərində qan
Düşünür xan
Düşünür xan...

Birdən
Canlanır gözündə o dağ
Və o dağ başında ucaltdığı
O uzaq qala:
- Qalırsa qızım orada,
Qaranlıq keçirsə gündüzü,
Görmürsə gecələri
Bir ulduz üzü,
Sıxılırsa canı
Qalın divarlar arasında,
Ağlamaq olursa işi,
Bir daha işıq üzünü
Görə bilmək həsrəti
Unutdurmazmı ona
O çobanı
Və o yaramaz məhəbbəti?!

Salırlar qızı
Yoldan, yolçudan uzaq
O issız qalaya,
Bunu öyrənən çoban
Oğrun-oğrun
Gəlir oraya,
Gizli bir qayadan
Ucalır tütək səsi,

Soyuq divarları isidir çobanın
İsti nəfəsi.
Sevgilisinə qovuşmaqçın
Qaçmaq istəyir qız qaladan,
Açılan qapı ardında
Boylanır xan!
İncə boğazına onun
Halqalanır qalın barmaqları xanın,
Bir andaca soyuyur qızın canı,
Sonra bu barmaqlar
Boğur çobanı.

İndinin özündə belə
,,Fit" dağından keçənlər
O yanıqlı, o susmaz
Tütək səsini eşidərlər.

# LALƏ

- Sən nə gözəlsən Lalə!
Bəlkə sən qırmızı dodaqlarısan
Bahar küləklərini qucaqlayan
Yaşıl donlu yamacların?!

- Mən belə deyildim ki
Çiçək oldum sonradan!

- Sən nə gözəlsən Lalə!
Yoxsa bir quşunmu mahnısısan
Qanadınmı bir oxdan?!

- Mən mahnı deyildim ki
Qanamadım bir oxdan!

- Sən nə gözəlsən Lalə!
Nə gözəldir bağrındakı qara!

- O qara deyildir ki
O bir yaradır, əski bir yara
Alıb aparar məni eeeey
Çox-çox uzaqlara!

- Sən nə gözəlsən Lalə!
Söylə, sən nəsən Lalə?

- Bizim də igidlərimiz
Mənim də sevgilim vardı,
Aldılar əllərindən oraqlarını
Mizraqlar verdilər
Və qalxanlar onlara,
Sovrulan yarpaqlarla
Səpələndi gözyaşlarımız
Acı yollara,
Geydim qırmızı donumu
Gözlədim sevgilimin yolunu,
Nə gedənlərimizdən bir xəbər gəldi
Nə sevgilimdən bir əsər!
Əridi qarlar, əridi buz,
Əsdi küləklər
Cəsəd qoxulu uzaqlardan,
Gözyaşları yağdı buludlardan,
Artıq səbrim tükəndi
Yandı bağrım qaraldı,
Tanrım məni çiçək et!
Bu son diləyim oldu.

- Hər bahar yollar üstündə
Qıpqırmızı duraram,
Gələr bir gün sevgilim
Gözləməkdən yorulmaram!

## ZÜMRÜD QUŞU VƏ İLAN

Günlərin bir günü Zümrüd quşu
Uzaq bir çöldə dolanırdı,
Günəş dayanmışdı ortasında göyün
Qumlar od tutub yanırdı.

Qərib bir canlı sürünürdü qumsalda,
Dərin bir şırım açılırdı qıvrılaraq,
- Sən bir ilanmısan,
yoxsa nəsən?
Gizləyə bilmədi heyrətini
Sordu Zümrüd quşu baxaraq.

- Mən şahmaram, ilanların
padşahı,
Nəfəsimdən yanar belə
qara daşlar!
Söylə sən kimsən, bir quşmusan?!
Nə qərib görkəmin var!

Açırkən qanadlarını sanki
Bir bulud parçası yerə endi:
- Uca göylərdən baxırsam
Tükü tükdən seçərəm yer üzündə
Mən Zümrüd quşuyam! - Dedi.

- Nədən göylərdən söyləyirsən
ey quş!
Mən ki uçan deyiləm, bir ilanam!
- İstərsən səninlə ey ilan
Göylərin yeddinci qatına
qanadlanaram!

Qanadları arasında Zümrüd quşunun
İlan uca göylərə qalxdı,
Qorxa-qorxa oralardan
Yerə baxdı.

Qorxu sarınca bütün canını
Titrək bir səslə çağırdı ilan:
- Aman ey quş, çox qorxuram
en buradan!
Yalvardı yaxardı ilan!

- Bir leş görürəm yer üzündə
Bir azdan ordayıq, qorxma!
Gizlən qanadlarım arasında,
Qaldırma başını, baxma!

Onlar endikcə göylərdən qat-qat
Böyüdü aşağılarda yer üzü,
Qocaman qanadlar arasında ilanın
Qorxudan böyümüşdü gözü!

Qondu isti qumlar üstünə quş
Yavaşcadan,
Qanadları arasından qıvırlaraq
Çıxdı ilan.

Yaman acmışdı quş yaman,
Leş olan yerə yönəldi,
Bir leşmiydi orda olan?!
Quşun çığırtısından ilan belə
Titrədi!

- Aman Zümrüd quşum, aman!
İlan heyrət içində səsləndi:
- Uca göylərdən yer üzündə tükü
Tükdən seçə bilən gözlərin
Nədən yanında bir duzağı
Görə bilmədi!

- Aman dostum ilan, aman!
Duzaq sanma bunu, bu qəzadır!
Zümrüd quşu acı-acı dilləndi!
Nə söyləsin buna ilan,
Susdu artıq, dinmədi!

# DAĞ VƏ BULUD

Bulud qucaqlayırdı çiyinlərini Dağın:
,,Nə qədər sevirəm səni Dağ!"
Pıçıldayırdı.
Yumşaq qolları arasında Buludun
Dağ, şirin röyalara dalırdı.

Bulud, sevgilisi Dağdan ayrı olurkən
Dağ, anırdı onu, mahnılar söyləyirdi.
O mahnıları uzaqdan dinləyirdi Bulud
Dağın qoynuna gəlirdi.

Amansız hökmdarı buludların
                                        Göy Ağa
Bir gün duyunca bunu, onları
Odlu qamçısıyla qamçıladı!
Ağrıdan inləyirkən Dağ
Bulud, dözmədi ağladı!

Göy Ağa sürgün etdi Buludu,
Bulud, çox uzaqlara qovlandı!
Dağın ucaldı həzin mahnıları,
Buludu görmək üçün
Gecə-gündüz boylandı.

Boylana-boylana uzaqlara
Ucaldı Dağ,
Bulud dözmədi sevgilinin həsrətinə
Gəldi uçaraq.

Göy Ağa endirdi yenə qamçısını,
Amma bir-birindən onları
Ayıra bilmədi!
Qovuşsun deyə Bulud gözəl Dağına
Uzaq ölkələrdən keçib gəldi.

## KARVANQIRAN ULDUZU

Uzaq yolları ardında qoyan karvan
Gecənin dərin səssizliyində
dincəlirdi,
Yalnız gözətçiydi oyaq qalan
Ülkər ulduzunun doğmasını
gözləyirdi.

Uğuldayırdı soyuq ruzgar,
Gövşəyirdi qaranlıqda dəvələr.
Səslənirdi orda-burda kol-koslar
Alaçıqlar xəfifcə titrəyirdilər.

İri bir ulduz parlayırdı ucalarda,
Göy üzündə gözətçi gördü onu,
Bu ülkər ulduzumu, çağırmada
Oyanıb yola düşməyə karvanı?!

Yenə yortur dəvələr ağır-ağır,
Yamaclar... dərələr... düzlər...
Bu nədir sovrulan, qarmı yağır?!
Nədən bunca gecikdi səhər!

Artıq yolunu itirmişdi karvan
Qar çovğunu çalıb çapırdı dünyanı,
Nə gecə tükənirdi, nə sökülürdü dan,
Bir ölüm qorxusu sarmışdı hər yanı.

Ülkər ulduzu doğdu yenə
göy üzündə,
Amma o karvan, onu görə bilmədi,
Karvanlar gəlib keçdi zaman boyu
yenə də,
O ulduza karvanqıran ulduzu
söylədi.

# DƏNİZ VƏ QAĞAYI

Böyük bir meydana gətirdilər onu,
Meydan adamlarla dolu,
Nədən sevdi xan qızını
Yoxsul oğlu ola-ola
Ki ölüm oldu yolu!

Böyük bir meydana gətirdilər onu,
Bir azdan asılacaqdı,
Gözlərində sönəcəkdi dünya
Və bir görüş yeri ağlayacaqdı.

Yalnız bir arzu vardı ürəyində,
Son bir arzu bu dünyadan:
Bir daha görə bilmək o gözləri!
Bir cüt sevdalı göz baxırdı ona
Bir çox baxanlardan.

O gözləri görürkən
Dalğalandı birdən,
Dalğalar aşıb keçdi oralardan,
Bir qağayı qanadlanıb uçdu
Adamlar arasından.

Bir cüt ağ qanad qucaqladı
Mavi dalğaları,
Sevgililər
Qovuşdular bir-birinə,
İndi kim ayıra bilərdi onları!

# QANLI GÖLÜN MARALLARI

Uca qayalardan enmişdilər oraya,
Körpə marallar su içirdi,
Ana maral su içmişdi, acıqmışdı,
İri gözlərində bir ürkü
Uzaqdakı tarlararı seyr edirdi.

Bahar keçirdi çöllərdən,
Yaşıl donu
            tarlalar boyunca sürünürdü,
Mahnılar yüksəlirdi hər yerdən,
Qayalar belə sevinirdi.

Külək gəlirdi tarlalardan,
Qucağında təzə ot qoxusu.
Ana maral imsilədikcə əsən yeli
Kiçilirdi gözlərindəki ürküsü
Azalırdı qorxusu.

Körpə marallar su içirdi...

Yaşıl bir otlaqda idi indi maral,
Otlayırdı, doymayırdı,
Qaranlıq bir kölgə çökdü gözlərinə
Yoxsa bir təhlükəmi vardı?!

Qaçmaq istəyirkən oradan
Bir ox qalxdı gizli bir yerdən,
Ürəyində bir ağrı
Qan püskürdü köksündən!

Var gücünü toplayaraq
Qaçıb çatdı yanına körpələrin,
Əmizdirdi doyunca onları
Son anları hələ varkən.

Ağ olardı hər zaman
Bu gölün suları,
Qızardı o gündən.

## TORPAQLA GÖY

Torpaq yaşıl-yaşıl süzərdi göyləri,
Göylər mavi-mavi torpağa baxardı.
Torpaqda göylərdən nə gözəl şeylər,
Göylərdə torpaqdan
                  boyalar
                    qoxular, mahnılar vardı.

Bunca uzaq deyil ki,
Bir zaman vardı
Torpaqla göy yaxın
Qonşulardı.

Bir gün yanaqlarda gözyaşı gördü
Əllərdə qan,
Dərindən sarsılan göylər
Çox uzaqlara getdi torpaqdan!

## ACI BULAQ SUYU

Ay boylanırkən dağ ardından
Yamacda iki kölgə göründü,
Kölgələr yaxınlaşdı bir-birinə
Bir oldu indi.

Qızın yanaqlarında gözyaşları
Bu son görüşümüzdür, deyirdi.
Oğlan oxşayırdı onun saçlarını
Gözyaşlarını silirdi.

- Məni adaxladılar o varlı oğluna
Gözyaşlarıma heç baxmadılar,
Dirim deyil, ölüm
                    qismət olacaqdır ona,
Cənazəmi gərdəyinə aparsınlar!

Hardasa bir quş qanadlanıb uçdu,
Səssizlik suları ləpələndi bir an,
Gecə dinləyirdi gizlicə söylənənləri,
Min illərdən bəri, bir sirr açmadan.

Oğlan susmuşdu, dinləyirdi qızı
İçindəki yanan işıq sönmüşdü,
Onsuz yaşamazdı, bilirdi bunu,
Hər nə qaranlığa bürünmüşdü.

***

Kim bilir nə zaman yaşamış
o sevgililər?!
Oğlan o yamacda bir qayadır indi.
Ondan ayrılmadı ki sevgilisi,
Onun yanında yaşıl bir söyüdə döndü.

O söyüdün budaqlarından acı-acı
Damlalar süzülər orda yerə,
O sulardan içilməz ki, acıdır,
Amma dərmandır xəstələrə.

## ALƏMİN YATAN VAXTI

Nə zamansa bu dünyada
Çox qərib bir gecə varmış,
O gecədə ağaclar da, qayalar da
İnsanlar kimi yatarmış.

Bir gözmü varmış yaşla dolu,
Bir ürəkmi ağrıları ovunmayan,
Dalarmış uyğusuna o gecənin,
Yatmış bir dünya üzərindən
Keçərmiş zaman.

***

Dərin bir gecədir, yatmış hamı,
Bir qadın oyanır yuxudan,
Nədən unutmuş, uyumuş
Buzovu bağlamadan!

Bağlayır buzovu qaranlıqda,
Bir ağacmı, nəmi, bilmədən.
Ağır daşdı gözlərində yuxu,
Baş atıb yatır yenidən.

Erkən oyananlar nə gördülər!
Budaqlar arasından baxır buzov!
Bir sirr ki, aça bilmədilər,
Dəhşətdən gözləri iriləşmiş
Heyvanı ağacdan endirdilər!

***

Aləmin yatan vaxtı qaldı nağıllarda,
Artıq bu yünyada
                    yox ki belə bir gecə,
İndi oyaq qalır ağrılar da
                    gözyaşları da
Gecələr üzərindən keçə-keçə!

## PƏRVANƏ VƏ OD

Od hələ od deyil, bir oğlandı,
Bir sevda odu yanırdı ürəyində,
Onu sevirdi şah qızı Pərvanə də,
Gizli-gizli görüşürdülər çoxdandı.

Padşah qızını yoxsul oğluna və’d
etdi,
Nə sınaqlardan keçmədi ki oğlan!
Heç yorularmı sevdası olan!
Və sınaqlar da bir gün sona yetdi.

Padşah verdiyi sözü dandı,
Bir sehirlə oda döndərdilər oğlanı,
Qız onsuz istəmədi bu dünyanı
Yalvarırkən göylərə qanadland.

Qanadlandı Pərvanə, Odu qucaqladı,
O sevdiyi Odundan heç ayrı olmadı.

# QARACA ÇOBAN

Dağların aslanıydı Qaraca Çoban,
Qayaların, bulaqların bəslədiyi.
Sapandı yellər kimi uğuldayan,
Uzaq dağlarda duyulan səsləndiyi.

Dağların aslanıydı Qaraca Çoban,
Adından düşmən əsərdi uzaqlarda.
Köksündə ancaq bir aslanın ürəyi!
Bilməz ki nə var duzaqlarda!

Və bir gün dost qılığında
                    gəldi düşmənlər,
Sayğılarla qarşıladı Qaraca Çoban!
Sarıdılar qollarını:
        ,,Qıra bilərsənmi?"- Söylədilər,
Dartaraq kəndiri parçaladı
                    Qaraca Çoban!

,,Varmı qıra bilmədiyin bir kəndir?"
                    - Sordular,
,,Qara keçimin qılından
        hörülmüş bir kəndirdir!"
                    - Söylədi o.

O kəndirlə sıx-sıx
qollarını bağladılar,
Kəndir sümüyə dayandı,
qıra bilmədi o!
Dağların aslanıydı Qaraca Çoban
Köksündə ancaq bir aslanın ürəyi!
İndi düşmən əlindəydi
Qaraca Çoban,
Amansız bir duzaqda çəlik biləyi!

Doğram-doğram edirkən
düşmən onu,
Son gücüylə səsləndi
əlində tütək.
Tütək səsi aşdı dağları,
vardı gözəl Bəstisinə,
Sevgili Çobanından gələn
bir qara xəbərtək:

,,Ağamın qızı Bəsti hey...
Bəsti hey...
Keçi qılı qollarımı kəsdi hey...
kəsdi hey...
Düşmən torpağımıza ayaq basdı
hey..."

Atlandılar obanın igidləri,
Dağlara doğru çapdılar,
Artıq gecdi, Çobanı
Doğram-doğram tapdılar!
O dağın qoynunda yatdı
                    Qaraca Çoban,
Ellər igid Çobanını unutmadı.
,,Qaraca Çoban" dağı söyləndi
                    o zamandan,
O dağla yaşadı onun da adı.

## BÜLBÜL VƏ QARATİKAN KOLU

Xan çox sevirdi bülbülünü,
Hər milində ayrıca bir naxış
Bir qəfəsdə saxlayırdı onu,
Ən dadlı dənlərdi dənlədiyi,
Ən sərin bulaqlardan gəlirdi suyu.

- Oxu bülbülüm, oxu,
Aç könlümü bir az!

Oxumurdu bülbül!

Bahar keçirdi bağlardan,
Ardınca boylanırdı çiçək,
Hər birində ayrı qoxu,
Hər birində ayrı rəng.

Çiçəklərlə süslənirdi qəfəs.

- Oxu bülbülüm, oxu,
Aç könlümü bir az!

Oxumurdu bülbül!

- Buraxın getsin bu quşu!
Nə mahnı bilər, nə sevinc,
Heç anlamaz da bəsləndiyini,
Bir cənnət etdim ona
Qəfəs deyildiyini-
Əmr etdi xan.

Açdılar qəfəsi, uçdu,
Qondu bir qaratikan koluna,
Gərdi qanadlarını,
Qucaqlayar kimi körpəsini
Bir həsrətli ana
Qucaqladı talanmış bir yuvanı,
Açdı açılmaz dimdiyini
Hər cəh-cəhində bir sevda
Hər nəğməsində bir həyat
Ötdü bunca zaman
Ötə bilmədiyini.

# AYLA GÜNƏŞ

Solğun bənizində bir qızartı ayın
Söyləyirdi hiddətlə:
- Sənmi çıxmaq istəyirsən gündüzləri,
Sənmi göstərmək istəyirsən özünü,
Unutdunmu yoxsa sən
Bir qadın olduğunu?
Mən çıxmaq istəyirəm, mən,
Mənimdir gündüz, bil,
Unutma bunu!

Oda düşmüş dəmir kimi
Yandı yanaqları günəşin:
- Unutmam qadın olduğumu,
Qadınlığımla mən də varam
Gecə örtüyünə bürünmək istəməm,
Sevməm kölgələrdə görünməyi,
Mən işıq qaynağıyam,
Mənəm əmizdirən hər nəyi,
İşıqlarım varsa
İşıqlarımda varımdır iynəm də,
Deşərəm gözlərini
Sərt baxılırsa mənə
Hər yerdə!

Ay gülümsədi solğun-solğun,
Səsində bir peşmanlıq:
- Doğrudur sözlərin, söylədi,
Gecələr mənim olsun
                    gündüzlər sənin,
Qadınsan bilirəm, çox da gözəl,
Gözəlliyinlə gücün də var,
Sən olmasan sönər həyat,
Sən olmasan
Varlıq donar.

## SƏN’AN DAĞI

Səssizliyində gecələrin
Artıq yumurkən gözlərini
                    yorğun oba,
Bir ney səsi gəlirdi bir yerdən,
Mahnılar yanıqlı-yanıqlı
Axıb keçirdi gecədən.
Düşünürdü hamı:
,,Kimdir çalan bu neyi,
Hardan gəlir bu qərib səs?!”

Və bir gün obanın
Dünya görmüş ağsaqqalları
Baş-başa verdilər.

Azmı görmüşdülər bu dünyada?!
Azmı eşitmişdi qulaqları
İnanılmaz olanı?!
Azmı keçmişdi önündən onların
Uzun-uzun illərin
Ağır yüklü karvanı?!

“Kimdir çalan bu neyi,
Hardan gəlir bu qərib səs?!”

Nələr düşünmədilər ki!
Nələr söyləmədilər ki!
Hara uçmadı ki xəyalları!

,,Bəlkə muradsız ölənlərin
Ruhlarıdır gecələri
Məzarlıqda inləyən!”
,,Bəlkə sevənlərin
Odlu şikayətidir
Arzularına yetmədən
Bu dünyanı tərk edən!”

“Kimdir çalan bu neyi
Hardan gəlir bu qərib səs?!”

Nələr düşünmədilər ki!
Nələr söyləmədilər ki!
Hara uçmadı ki xəyalları!

Qorxmaz igidləri obanın
Dərin səssizliyində gecənin
Yollandılar məzarlığa,
Qaranlıqları yara-yara
Üz tutdular uzaqlara,
Uzaqlaşdıqca onlar
Uzaqlaşdı səs də.
Döndülər obaya
Sarıldılar atlarına.

Dağlardan aşdılar
Dərələrdən keçdilər,
Dörd nala çapdılar
Səsə yetmədilər.
Artıq yoruldu atları
Qan-tərə batdı atları.
Atlarını buraxdılar
Getdilər ardınca səsin.
Açılırkən gözləri səhərin,
Başında qar,
Yamaclarında ağ duman,
Bir dağ sıyrıldı qaranlıqdan,
Sular köpüklü-köpüklü
Axırdı qayalıqdan.
Başı qarlı o dağa qarışmışdı
O dumanlara, sulara
O qərib səs!
Səslənirdi dilində bulaqların:
,,Sən an məni, sən an!”
Səslənirdi
Səslənirdi hər yandan.

Mindilər igidlər atlarını,
Ardlarında sirli bir dünya
Yorğun-yorğun
Döndülər obaya.

## QU QUŞU ƏFSANƏSİ

Təkbaşına böyütmüşdü onları,
Unutmuşdu qadın olduğunu,
Zaman keçmişdi alnından
qırış-qırış,
Əllərindən
qabar-qabar,
Boy atdıqca balalar
Cücərmişdi qəlbində
Xoş arzular!

Xəstələnmişdi ana,
Od içində yatağı,
Ürəyində bir yanğı,
Su diləyirdi su!
Durmaq istədi yerindən
Titrədi qılçaları,
Dil açıb da yalvardı
Bir içimlik su üçün!
Vermədi balaları!

Əsdi soyuq bir yel
Duydu damarlarında ana,
Uzaqlarda yaşıl bir bağ
Bir ilğım oldu ona!

- Bir quş olum tanrım!
Yurdum olsun mavi
Və kimsəsiz sular,
Vəfasızdır dünya
Vəfasızdır nə var!

Diləyirkən ana
Qanadlandı birdən,
Çığırırdı ardınca
Uşaqları qaçaraq.

Keçdi damlar üzərindən
Ağ qanadlı bir quş
Uzaqlara uçaraq!

# XORUZ QARDAŞ

## Malayziyadan bir əfsanə

## XORUZ QARDAŞ

Bir əfsanə eşitdim malaylardan
Heç unuda bilmədim,
Uzaq, bütün zamanlardan
Ən qədimlərdən çox qədim!

İki bacı varmış, bir qardaş,
Ulu göylərmiş onların yurdu.
Bacılar kiçik qardaşı çox
sevərmişlər,
İçdikləri bulaq suları
Yedikləri orman meyvələri olurdu.

Günlərin bir günü böyük bacı
Kiçik bacını səslədi:
,,Mən ormana getmək istəyirəm,
Meyvə toplayım bir az,
Sən qardaşımızla evdə qal!", Dedi.

Göy bitkilərindən toxunmuş
zənbilini
Saldı qoluna getdi bacı.
,,Aman, nə yanır ürəyim
Dur mənə bir az su gətir!"
Kiçik qardaşa dedi bacı.

Qardaş şirin-şirin oynayırdı
Bacısına su gətirmək istəmədi,
Odlu bir acıq duydu bacı ürəyində
Hiddət gözlərini pərdələdi!

Tutdu qollarından qardaşının
Göylərdən dərin yerə tulladı!
Uşaq gəlib endi bu dünyaya
Yalnız qaldı, ağladı!

Qolunda meyvələrlə dolu zənbili
Bacı qayıtdı ormandan,
Eşitdi olub bitəni
Odlanıb yandı bu andan!

Günəş oldu böyük bacı,
                kiçik bacı ay,
Günəş, görmək istəmədi
                heç zaman ayı!

Hər sabah görürkən günəş bacını
Sevinər yerdə xoruz qardaş
Göylərə yüksələr harayı!

Kitabı hazırlayan:
Fərhud Nayebi

Redaktə edəni:
Nəzirə Merqati

QAYNAQLAR:

Azərbaycan xalq əfsanələri
Toplayanı: Səndik Paşayev

Əfsanələr:
Gənclik. Bakı. 1986

Bayatı:
Toplayanı: Vaqif Vəliyev
Səndik Paşayev
Yazıçı. 85